

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# "Azərbaycan Çini özünün strateji tərəfdaşı hesab edir"




4

№ 148 (6831)

SƏS

19 avqust 2023-cü il.
Qiymәti 60 qәpik

# Söz, əməlin kölgəsidir



3

*PREZİDENT İLHAM ƏLİYEV: "Keçmiş məcburi köçkünlərlə görüşlərdə demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu"*

# Böyük Qayıdış uğurla həyata keçirilir



11

## Meksika mediası: "Ermənistan regional sülhü təhdid edir"


Azerbaiyán y Armenia, en busca de armonía

4

## Volskidən bu günümüzə



9

## SƏRHƏD: Vətənin başlanğıcı



5

## Hiperaktivlik xəstəlikdir, yoxsa həyat tərzi?



15

## Messi "İnter Mayami"yə niyə keçib? – özü açıqladı



16

# Azərbaycan dünya birliyi üçün etibarlı və strateji tərəfdaşdır!



*Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının, Tacikistan Respublikasının və Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib*





Dünən Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxolun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Daha sonra dövlətimizin başçısı səfirlə söhbət etdi. Qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən səfir Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədri Kim Çen Inın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədrinə çatdırmağı xahiş etdi.

Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdıran səfir xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1985-ci ildə Koreya Xalq Demokratik Respublikasına səfərinin məmnuniyyətlə xatırlandığını bildirdi. O, Azərbaycanın və Koreya Xalq Demokratik Respublikasının beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığının vacibliyini vurğuladı, iki ölkənin parlamentləri, eləcə də Yeni Azərbaycan Partiyası ilə Koreya Xalq Demokratik Respublikasının Əmək Partiyası arasında əməkdaşlığın inkişaf etdirilməsinin önəmini qeyd etdi. Sin Xon Çxol Azərbaycanın neft-qaz sahəsində zəngin təcrübəsini nəzərə alaraq, Koreya Xalq Demokratik Respublikasından olan tələbələrin Azərbaycanda bu sahədə təhsil almasının vacibliyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin qarşılıqlı maraq doğuran sahələrdə gələcəkdə də inkişaf edəcəyinə əminliyini bildirdi. Ulu Öndər Heydər Əliyevin 1985-ci ildə Koreya Xalq Demokratik Respublikasına səfərini xatırladan Prezident İlham Əliyev bu səfərin sonrakı illərdə - Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə Koreya Xalq Demokratik Respublikası ilə əlaqələrin inkişafına təkan verdiyini qeyd etdi.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının 2019-cu ildə Azərbaycanda keçirilən Zirvə görüşü çərçivəsində Koreya Xalq Demokratik Respublikasının yüksək səviyyəli nümayəndə heyəti ilə görüşünü məmnunluqla xatırladı, Qoşulmama Hərəkatı, BMT və digər beynəlxalq təşkilatçılar çərçivəsində ölkələrimiz arasında əlaqələri diqqətə çatdırdı. Dövlətimizin başçısı parlamentlər, hakim partiyalar arasında münasibətlərin və mədəni əlaqələrin genişləndirilməsinin vacibliyini vurğuladı.

Avqustun 18-də Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonun etimadnaməsini də qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra səfirlə söhbət edən dövlətimizin başçısı Azərbaycan ilə Tacikistan arasında münasibətlərin qardaşlıq və dostluq xarakteri daşıdığını vurğuladı, hökumət üzvləri, parlamentlər, ictimai təşkilatlar xətti ilə daim təmasların və qarşılıqlı səfərlərin həyata keçirildiyini dedi.

Prezident İlham Əliyev Tacikistana dövlət səfərini məmnunluqla xatırladı, səfər çərçivəsində aparılmış müzakirələr zamanı müəyyənləşdirilmiş hədəflərə nail olunması istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı Tacikistana səfəri zamanı bu ölkənin və Düşənbənin inkişafının şahidi olduğunu vurğuladı. Azərbaycan Prezidenti iqtisadiyyat, ticarət, nəqliyyat, logistika və digər sahələrdə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üçün bir çox təşəbbüslərin olduğunu diqqətə çatdırdı, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin möhkəmləndiyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın və Tacikistanın regionları arasında əməkdaşlığın və şəhərlərarası birbaşa əlaqələrin yaradılmasının vacibliyini bildirdi. Səfir, ilk növbədə, Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan Prezidentinə çatdırmağı xahiş etdi və Prezident Emoməli Rəhmonu Azərbaycana dövlət səfərinə dəvət etdi.

Səfir İlxom Abduraxmon dövlətimizin başçısının Tacikistana səfəri zamanı ikitərəfli əlaqələrin inkişafı baxımından çox vacib və səmərəli müzakirələrin aparıldığını vurğuladı, müxtəlif səviyyələrdə, o cümlədən parlament sədrlərinin səfərlərinin önəmini qeyd etdi, hökumətlərarası komissiyanın bu yaxınlarda iclasının keçirildiyini xatırladı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyini vurğuladı.

İlxom Abduraxmon Bakı ilə Düşənbə arasında birbaşa aviareyslərin açılmasının turizm sahəsində əməkdaşlığımızın inkişafına ciddi təkan verəcəyini qeyd etdi. O, Azərbaycanın sürətli inkişafının, Bakının gözəlliyinin və şəhərin memarlıq üslubunun onda dərin təəssürat hissi yaratdığını dedi.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"nın təsdiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Masallı rayonunun Lənqan–Əhmədli–Təklə–Köcəkli, Bala Təklə–Şərəfə və Öncəqala–Hüseynhacılı–Viləş–Xallıcalı–Dəlləkli–Qədirli avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Fernando Kuartas Ayalanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi, ölkələrimizin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin uğurla inkişaf etdiyini bildirdi. Minatəmizləmə sahəsində kolumbiyalı mütəxəssislərin Azərbaycanda fəaliyyət göstərdiyi qeyd olundu. Luis Fernando Kuartas Ayala ölkələrimiz arasında turizm sahəsində əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Səfir ölkəmizdə akkreditə edilmiş diplomatik korpusun nümayəndələrinin Ağdama səfərində iştirak etdiyini, həmin ərazilərdə aparılan bərpa-quruculuq işləri ilə yerində tanış olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələrin məmnunluq doğurduğunu vurğuladı, ölkələrimizin BMT, Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlıq etdiyini və daim bir-birini dəstəklədiyini dedi. Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsinin vacibliyini bildirdi.

# Söz, əməlin kölgəsidir



## PREZİDENT İLHAM ƏLİYEV: "Keçmiş məcburi köçkünlərlə görüşlərdə demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu"

**Artıq bu gün - 33 ildən sonra dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub. Bütün bu uğurlar Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir.**

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur.

### "DƏMİR YUMRUQ" BİRLİYİ İLƏ HAQQ VƏ ƏDALƏTİ BƏRPA ETMİŞ AZƏRBAYCAN XALQININ BİRLİK, GÜC RƏMZİ İLƏ BÖYÜK QƏLƏBƏ, ZƏFƏR TARİXİNİ YAZDI

Bəli, mümkünsüzü mümkün edən 44 günlük müharibə bir daha bütün dünyaya göstərdi və sübut etdi ki, o özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi! 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə imzalanan birgə bəyanatla işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu "Dəmir yumruğ"un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu.

### VERİLƏN VƏDƏ SADİQLİK ÖRNƏYİ: "SİZ KÖÇKÜN DEYİLSİNİZ, BİZ SİZİ QAYTARACAĞIQ!"

Prezident İlham Əliyev qələbə zəfərindən sonra bütün çıxışlarında bildirir ki, bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və buna da nail olacağıq. "Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq!",-deyən Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır: "Məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir. Digər tərəfdən, özəl sektor artıq sosial məsuliyyət göstərərək belə gözəl imkanlar yaradır".

Bunu Prezident İlham Əliyev Bakıda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışında deyib. Dövlət başçısı bildirib ki, ümumiyyətlə Azərbaycanda 300 mindən çox məcburi köçkün bu günə qədər mənzillərlə, fərdi evlərlə təmin olunub və onlardan təqribən 20 mini bir şirkət tərəfindən görülmüş işlər nəticəsində evlərlə təmin edilir: «Məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapır. Bildiyiniz kimi, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim proqramımın tərkib hissəsi məhz bu məsələ idi. Söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və nəinki 5 il, 4 il ərzində biz buna nail olduq. Çox böyük uğur idi. Çünki ölkəmizin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, eyni zamanda, uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayırdılar. Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıb. Son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürür. Son 4-5 il ərzində neftin qiymətinin bir neçə dəfə kəskin düşməsinin şahidi olmuşuq. Buna baxmayaraq, məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur».

Prezident qeyd edib ki, eyni zamanda, məcburi köçkünlərin sosial təminatı yaxşılaşır: "Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Əlbəttə, indi dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyiblər. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu, bizim borcumuzdur, bunu biz edirik və edəcəyik".

### HEYDƏR ƏLİYEV FONDUNUN HƏYATA KEÇİRDİYİ HUMANİST XARAKTERLİ UĞURLU LAYİHƏLƏR

Məcburi köçkünlərin məişət problemlərinin həlli işində dövlətlə yanaşı, artıq özəl sektor da yaxından iştirak edir. "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi oldu. Xatırladaq ki, burada mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. Ən əsası isə həmin layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib. Həmçinin, onu da qeyd etmək lazımdır ki, qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. 2017-2018-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1481 mənzil, Qaradağ rayonu ərazisindəki «Qobu Park» yaşayış kompleksinin yanında 2-ci yaşayış kompleksində 1300, Dövlət Proqramının icrası üzrə Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində 810, Pirallahı rayonunda 306, Şirvan şəhərində 685, Beyləqan rayonunda 146 ailəlik qəsəbə və yaşayış kompleksləridir.

### BİZ, HƏMÇİNİN KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRİN ÖZ DOĞMA YURDLARINA QAYIDIŞI PROSESİNƏ BAŞLAMIŞIQ

Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxışlarında, müsahibələrində dəfələrlə bildirib ki, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı üçün bütün uğurlu addımlar atılır. Dövlət başçımızın 16 noyabr 2022-ci ilda imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" Sərəncamı da deyilənlərin göstəricisidir. Astanada keçirilən AQFET-in VI Zirvə Toplantısında dövlətimizin başçısı bildirmişdir: "Biz, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq. "Böyük Qayıdış" adlanan proqram artıq başlayıb".

Dövlət proqramında nəzərdə tutulan tədbirlər hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcək. Sənədin əsas məqsədləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışla bağlı təsbit olunmuş 2 məqsəd: Əhalinin dayanıqlı məskunlaşması və Ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində müəyyən edilib.

Bu məqsədlər ilk növbədə ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq, sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığı təmin etmək, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək, sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək, ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturu formalaşdırmaq, dayanıqlı və mütərəqqi kənd təsərrüfatı təcrübələrini tətbiq etmək, "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqini təşviq etmək nəzərdə tutulur.

Qoyulan hədəflər nəzərə alınmaqla Dövlət proqramının icrası üzrə monitorinqlər keçiriləcək. Monitorinq məqsədilə tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr müəyyən edilir. İlkin nəticələr dövlət proqramının icra olunduğu dövr ərzində hər ili, aralıq nəticələr illik əsasda olmaqla 2023-cü, 2024-cü və 2025-ci illəri, yekun nəticələr isə 2026-cı ili əhatə edəcək. Sözügedən dövlət proqramı üzrə monitorinq və qiymətləndirmə Prezidentin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi" Qaydasına əsasən həyata keçiriləcək.

Bəli, dövlət başçısı İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında müharibədən ötən qısa müddət ərzində böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzur artıq doğma sakinlərini qəbul etməyə başlayıb. Çox tezliklə, bütün keçmiş məcburi köçkünlər qayıdış karvanları ilə doğma yurdlarına dönəcəklər. Yenidən o doğma torpaqlarda yaşayacaq, quracaq, abadlaşdıracaq, xoşbəxt həyat sürəcəklər. Necə ki Prezident İlham Əliyev vaxtilə, 24 dekabr 2011-ci ildə, 50 illik yubileyini Qarabağ torpağında - Ağcabədidə Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd etdiyi gün onlara söz vermişdi: "...Bu, müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda, hələ ki işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm...".

Bəli, bu gün artıq Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevrilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Məhz buna görə də, qaçqın və məcburi köçkünlər əmindirlər ki, onlar Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində doğma yurdlarına qayıdacaqlar. O gün uzaqda deyil.

**RƏFİQ*Ə KAMALQIZI**

# “Azərbaycan Çini özünün strateji tərəfdaşı hesab edir”




*Çinin “Phoenix” Televiziyasında Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi yayımlanıb*

**Çinin “Phoenix” Televiziyasında Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi yayımlanıb. Prezidentin xüsusi nümayəndəsi müsahibədə Azərbaycan-Çin münasibətlərinin sürətli inkişafı, əməkdaşlığın daha da dərinləşdirilməsi imkanları, Cənubi Qafqaz regionunda hazırkı vəziyyət və digər məsələlər barədə ətraflı məlumat verib. Azərbaycan ilə Çin arasında yüksək səviyyəli siyasi dialoqun mövcudluğunu vurğulayan E.Əmirbəyov dövlətlərimizin başçıları İlham Əliyev ilə Si Cinpinin bir neçə dəfə görüşdüklərini xatırladıb, hər iki liderin şəxsi münasibətlərinin əlaqələrimizin inkişafına da mühüm təsir göstərdiyini deyib.**

Prezidentin xüsusi nümayəndəsi Çinə səfərinin məqsədinin ölkələrimiz arasında siyasi dialoqun daha da dərinləşdirilməsi, eləcə də Çin tərəfinin Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları barədə məlumatlandırılması olduğunu vurğulayıb: “Biz Çinin beynəlxalq arenada necə əhəmiyyətli rol oynadığını bilirik. Çin BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Çin Azərbaycan üçün dost ölkədir. Azərbaycan da Çini özünün strateji tərəfdaşı hesab edir”.

Ötən il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan xüsusi nümayəndə qeyd edib ki, ölkələrimizin liderlərinin şəxsi münasibətləri sayəsində bu gün iki dövlət arasında yüksək səviyyəli əlaqələr mövcuddur. Ə.Əmirbəyov Çin xalqı üçün yeni cəlbedici səyahət məkanı kimi Azərbaycanın imkanlarından bəhs edərək, iki xalq arasında təmasların inkişafı baxımından birbaşa aviareyslərin əhəmiyyətini xüsusi vurğulayıb.

Azərbaycanın neft və qaz tədarükçüsü olduğunu bildirən E.Əmirbəyov vurğulayıb ki, bu gün Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini təmin edilməsində mühüm rol oynayır. Daha geniş regionda baş verən geosiyasi hadisələr, əməkdaşlığın geoiqtisadi əhəmiyyətinin artması nəzərə alınaraq, ölkələrimizin rəhbərləri Çinin “Bir kəmər, bir yol” təşəbbüsündən yararlanmaq üçün daha geniş fəaliyyətin həyata keçirilməsi barədə razılığa gəliblər. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan Şərq ilə Qərb arasında mühüm körpü rolunu oynayır. Uğurla fəaliyyət göstərən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi, Xəzər dənizini Qara dəniz ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi mühüm infrastrukturlar Orta Dəhliz layihəsinin həyata keçirilməsində böyük rol oynaya bilər. Bunlar, həmçinin Azərbaycanın da tamamilə dəstəklədiyi “Bir kəmər, bir yol” təşəbbüsü ilə əlaqələndirilə bilər. Orta Dəhlizin “Bir kəmər, bir yol” təşəbbüsü ilə əlaqələndirilməsi iqtisadi-ticari əlaqələrin, logistika imkanlarının, həmçinin turizmin daha da inkişafına mühüm töhfə verəcək.

Müsahibədə Azərbaycanda Çin dilinin öyrənilməsinə artan maraqdan da bəhs olunub. Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi vurğulayıb ki, bu gün azərbaycanlı gənclərin bir çoxu bu dili öyrənməyə maraq göstərir. Gözəl Çin ölkəsinə səyahət edərək Çin dili və mədəniyyətini dərindən öyrənməyə can atan azərbaycanlı tələbələrin sayına nəzər salsaq görərik ki, bu sahədə inkişaf göz qabağındadır. Azərbaycanda Çin Dili mərkəzləri uğurla fəaliyyət göstərir.

E.Əmirbəyov müsahibəsində Azərbaycanın 1990-cı illərdən başlayaraq, Ermənistanın təcavüzkar siyasətinə məruz qaldığını və nəticədə torpaqlarımızın 20 faizinin otuz ilə yaxın müddətdə işğal olunduğunu vurğulayıb. Bildirib ki, bu işğal nəticəsində bir milyondan çox azərbaycanlı doğma yurdlarından didərgin düşüb, ölkə ərazisinin səkkizdəbiri tamamilə dağıdılıb. Lakin Azərbaycan İkinci Qarabağ müharibəsində şanlı Qələbə qazanaraq tarixi torpaqlarını işğaldan azad edib. Tarixi ədaləti, ərazi bütövlüyünü bərpa edən Azərbaycan düşmənçilik səhifəsini çevirmək, Ermənistanla mehriban və dinc qonşuluq münasibətləri qurmaq üçün beş əsas prinsipə əsaslanan sülh gündəliyi təklif edib. Münasibətlərin normallaşdırılması üçün hazırda gözəl şanslar var. Çünki Azərbaycan regionun daha yaxşı gələcəyə layiq olduğunu hesab edir.

Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində danışıqlar prosesi barədə məlumat verən xüsusi nümayəndə prosesin bu ilin mayından daha da intensivləşdiyini vurğulayıb, lakin bunun davamlı sülhə nail olmaq üçün yetərli olmadığını bildirib: “Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı bəyanatı sülh prosesində nikbinlik yaradır. Bu mühüm element onu deməyə imkan verir ki, əsas sazişi imzalamaqdan çox da uzaqda deyilik”.

E.Əmirbəyov doğma torpaqlarından zorla qovulmuş və etnik təmizlənməyə məruz qalmış yüz minlərlə azərbaycanlı keçmiş məcburi köçkünün geri qayıtmaları prosesi barədə də məlumat verib, Böyük Qayıdış prosesinə uğurla başlandığını vurğulayıb.

Prezidentin xüsusi nümayəndəsi bildirib ki, Azərbaycan Ermənistandan üzərinə götürdüyü bütün öhdəlikləri tam şəkildə yerinə yetirməsini gözləyir. Ermənistan ilk növbədə silahlı qüvvələrinin hissələrini Azərbaycanın suveren ərazisindən tamamilə çıxarmalıdır. Üçtərəfli Bəyanatın imzalanmasından iki il yarım keçməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin 10 min nəfərlik şəxsi heyəti hələ də Azərbaycanın Qarabağ regionunda qeyri-qanuni qalmaqdadır. Ermənistan silahlı qüvvələrini Azərbaycanın suveren ərazisindən nə qədər tez çıxararsa, sülh sazişi bir o qədər qısa müddətdə imzalana bilər.

# Meksika mediası: “Ermənistan regional sülhü təhdid edir”


EL HERALDO

COLUMNA INVITADA

Azerbaiyán y Armenia, en busca de armonía

La perspectiva armenio-centrista, promovida como la visión comúnmente aceptada y "occidental" por varias potencias europeas, no puede considerarse universal

COLUMNA INVITADA
OPINIÓN · 16/8/2023 · 00:20 HS

Talya Iscan / Columna invitada / Opinión El Heraldo de México Créditos: Foto: Especial

Escuchar el artículo 4 minutos

Hace 32 años, tras la independización de las **repúblicas del Cáucaso del sur** se inició un conflicto entre **Azerbaiyán y Armenia** que terminó en 2020. Ahora, enormes campos minados que amenazan la seguridad de la población civil azerí persisten como señal de que pese a los mejores esfuerzos, falta mucho por hacer.

Meksikanın məşhur “Heraldo de Mexico” qəzetinin həm elektron, həm də çap versiyasında “Azərbaycan və Ermənistan, harmoniya axtarışında” başlıqlı məqalə dərc olunub. Azərbaycanın Meksikadakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, məqalədə ölkəmizin 2020-ci ildə uzun illər davam edən işğala son qoymasına baxmayaraq, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qeyri-qanuni silahlı dəstələrinin mövcudluğunun regional sülhü və təhlükəsizliyi ciddi təhdid etdiyi vurğulanır. Ermənistan tərəfindən həyata keçirilən mina terrorunun dinc əhali üçün böyük təhlükə yaratdığı, insanların normal həyata qayıtmasına, şəhərlərin və infrastrukturun bərpasına mane olduğu qeyd olunur.

Yazıda Avropa institutlarının ikili standartlar nümayiş etdirərək Ukrayna ilə bağlı tutduqları mövqedən fərqli olaraq, Azərbaycanı ərazi bütövlüyünün bərpası məsələsində dəstəkləmədikləri, bununla belə Qərbin Rusiya-Ukrayna müharibəsi fonunda Azərbaycanı etibarlı enerji tərəfdaşı və regionun aparıcı qüvvəsi kimi qəbul etdiyi bildirilir. Bölgədə sülhə təhdidlərin mövcudluğuna baxmayaraq, Azərbaycan tərəfindən genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, vaxtilə etnik təmizləməyə məruz qalmış bir milyon azərbaycanlının təhlükəsiz şəkildə, zəruri həyat şəraitləri təmin edilməklə öz doğma torpaqlarına qayıdışının həyata keçirildiyi diqqətə çatdırılır.

Həmçinin postmünaqişə dövrünün əsas çağırışlarından birini erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiya məsələsinin təşkil etdiyi, iki ölkə arasında nəqliyyat-kommunikasiya xətlərinin bərpasının bütün regionun iqtisadi və sosial rifahına xidmət edəcəyi bildirilir.

Xüsusi qeyd olunur ki, Fransa daxil olmaqla, bəzi Avropa qüvvələri tərəfindən “Qərbin baxışı” kimi qələmə verilən erməni mərkəzli yanaşma universal sayıla bilməz. Azərbaycanın torpaqlarını işğaldan azad etməsinə və sülh prosesinin təşəbbüskarı olmasına baxmayaraq, 30 ildir erməni propaqandasının alətinə çevrilmiş Qərb tərəfindən Azərbaycana qarşı bu gün də dezinformasiya, qərəz və ayrı-seçkilik davam edir.

# YAP Mərkəzi Aparatında KXDR-in ölkəmizdəki səfiri ilə görüş keçirilib

***Avqustun 18-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Koreya Xalq Demokratik Respublikasının (KXDR) Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxol ilə görüş keçirilib.***



Qonaqları salamlayan YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev Koreya Xalq Demokratik Respublikasının Azərbaycan üçün dost ölkə olduğunu bildirib. Ötən il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan Əhliman Tağıyev Azərbaycanla Koreya Xalq Demokratik Respublikası, eləcə də YAP ilə Koreya Əmək Partiyası arasında dövlətlərimizin və xalqlarımızın mənafeyinə xidmət edən qarşılıqlı faydalı münasibətlərin inkişafı üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, hakim partiyalar arasında əlaqələrin genişləndirilməsi dövlətlərarası münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir.

Koreya Xalq Demokratik Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxol Azərbaycanda olmaqdan məmnunluq duyduğunu ifadə edib. Ümummilli Lider Heydər Əliyevin 1985-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini qismində nümayəndə heyətinin rəhbəri kimi KXDR-ə səfər etdiyini xatırladan səfir Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük uğurlar əldə etdiyini vurğulayıb. Azərbaycanın Qoşulmama Hərəkatında yüksək səviyyədə təmsil olunmasına toxunan səfir ölkəmizin Hərəkata sədrlik müddətində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. O, Koreya Əmək Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin qurulmasında və inkişafında maraqlı olduqlarını, bu istiqamətdə qarşılıqlı fikir mübadiləsinin aparılmasının böyük önəm daşıdığını bildirib. Sonda xatirə fotosu çəkdirilib.

# SƏRHƏD: Vətənin başlanğıcı



**_Sərhəd deyiləndə ilk ağıla gələn Vətən, Vətən deyiləndə isə ilk düşünülən sərhəddir. Çünki sərhəd Vətənin varlığını təsdiq edir. Onu əhatə edir, qoruyur ki, Vətən daim təhlükəsiz olsun. Sərhədlərimizi qoruyan sərhədçilər isə Vətənin ər, igid oğullarıdır. Onlar daim sərhədlərdədir. Nə gecələri, nə gündüzləri var. Nə isti, nə şaxta bilirlər. Havanın necə olmasına baxmayaraq onlar sərhəddə, öz mövqelərində, vəzifə başındadırlar. Çünki üzərlərində böyük bir məsuliyyət var: Vətəni qorumaq. Hər cür təhlükə ilə də üz-üzə qalırlar, lakin bir an belə gözlərinə yuxu getmir. Çünki onlara Vətəni göz bəbəyi kimi qorumaq tövsiyə olunur._**

18 avqust, bax, elə məhz sərhədçilərin günüdür. Ümummilli Lider Heydər Əliyevin 16 avqust 2000-ci il tarixli Sərəncamı ilə 18 avqust Sərhəd Qoşunlarının şəxsi heyətinin peşə bayramı kimi təsis edilmişdir. Elə bu əlamətdar gündə böyük tarixi yol keçmiş sərhəd mühafizəsindən söhbət açmaq, bir əsrdən artıq yaşı olan bu sahənin inkişafına nəzər salmaq yerinə düşər.





### Tarixə qısa nəzər...

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və Milli Şura tərəfindən dövlət müstəqilliyinin elan edilməsindən sonra, 1919-cu ildə milli hökumətin qarşısında duran ən mühüm məsələlərdən biri gənc respublikanın hərbi qurumlarını yaratmaq, dövlət sərhədlərini möhkəmləndirmək, xarici və daxili təhdidlərdən ölkənin müdafiəsini təmin etmək istiqamətində təcili tədbirlər görməkdən ibarət idi. Odur ki, hökumətin qərarı ilə təsis edilən Hərbi Nazirliyin tərkibində ölkənin bir sıra güc strukturları, o cümlədən Sərhəd Qoşunları fəaliyyətə başlayır.

18 avqust 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edir. Qanuna əsasən, Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin tərkibində Azərbaycanın ilk Sərhəd Qoşunları dəstəsi yaradılır.

Sərhədlərin qorunması istiqamətində qısa zaman kəsiyində bir sıra xeyli işlər görən Azərbaycan hökuməti sonrakı illərdə yerlərdə dövlət və hakimiyyət strukturlarını möhkəmləndirməklə müstəqil respublikanın sərhədlərini hərtərəfli mühafizə etməyə qadir qüvvələr formalaşdırmağı qarşısına məqsəd qoymuşdu. Lakin cümhuriyyəti gözləyən acı tale bu arzuların həyata keçməsinə maneçilik yaratmaqda idi. Belə ki, daxili mübarizələr və bolşevik Rusiyasının 1920-ci ilin 27 aprel təcavüzü Azərbaycanın ilk müstəqil dövlətinin süqutuna gətirib çıxarmaqla, sərhəd mühafizə qüvvələrinin yaradılması işini də yarımçıq qoydu.



20-ci illərin əvvəllərində, Azərbaycan Xalq Sümhuriyyəti dövründə respublikanın təxminən 114 min kvadratkilometr ümumi ərazisi vardı. Onun 97,3 min kvadratkilometri mübahisəsiz, 16,6 min kvadratkilometri isə mübahisəli ərazilər hesab olunurdu. Müstəqilliyimizin itirilməsi həmin ərazilərin də daşnak-bolşevik ünsürlər tərəfindən bədnam qonşularımızın ixtiyarına keçməsi ilə nəticələndi. Beləliklə, həmin illərdə Azərbaycanın 29,8 min kvadratkilometr ərazisi itirildi.

Bu gün respublikamız İranla 765 kilometr, Türkiyə ilə 15 kilometr, Rusiya ilə 391 kilometr, Gürcüstanla 471 kilometr, Ermənistanla 1007 kilometr sərhədə malikdir. Su sərhədi isə 825 kiolometrdir.

Sovet İttifaqı dövründə artıq Sərhəd Xidməti Dövlət Təhlükəsizlik Komitəsinin bir strukturu kimi fəaliyyət göstərirdi. Azərbaycanın İran və Türkiyə ilə sərhədlərini sovet sərhədçiləri qorumuşlar. Şərq, şimal və qərb istiqamətlərində isə heç bir sərhəd infrastrukturu olmamışdır. Necə ki, həmin dövrdə Azərbaycandan əsgəri xidmətə gedənlər fəhlə batalyonlarına göndərilirdilər, eləcə də sərhədlərimizdə yerləşdirilmiş hərbi hissələrdə xidmət edənlər içərisində azərbaycanlılar demək olar ki, yox idi. Məqsəd isə aydın idi: azərbaycanlıların hərb sahəsində inkişaf etməsini əngəlləmək.

Bu proses XX əsrin 70-ci illərinin əvvəlinə qədər davam etdi və yalnız Ulu Öndər Heydər Əliyev Azərbaycan SSR-ə rəhbər seçiləndən sonra onun atdığı konkret addımlar nəticəsində müsbət istiqamətdə dəyişikliyə nail olundu, 1969-1982-ci illərdə milli hərbi kadrların hazırlanmasında çox böyük işlər görüldü.

### Sərhədlərimiz 90-cı illərdə

Həmin dövrdə Azərbaycan Respublikasının Sərhəd Qoşunları ciddi problemlərlə üzləşmişdi. İran İslam Respublikası və Türkiyə ilə dövlət sərhədində mövcud mühəndis-texniki qurğular dağıdılmış, hərbi texnika və digər maddi-texniki vasitələr yararsız hala salınmışdı. İxtisaslı kadrlara ciddi ehtiyac duyulurdu. Ermənistan Silahlı Qüvvələri tərəfindən ölkə ərazisinin 20 faizinin işğalı nəticəsində İran İslam Respublikası ilə dövlət sərhədinin 132 kilometr sahəsinə nəzarət etmək qeyri-mümkün olmuşdu. Narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiya, insan alveri, radioaktiv maddələrin və kütləvi qırğın silahlarının komponentlərinin qanunsuz daşınması, qaçaqmalçılıq kimi cinayətlərlə məşğul olan transmilli kriminal qruplar Azərbaycan Respublikasının dövlət sərhədlərində yaranmış vəziyyətdən öz məqsədləri üçün yararlanmağa çalışırdılar. Bütün bu amillər dövlət sərhədinin pozulması hallarının sayının kəskin artmasına gətirib çıxarmışdı.

Həmçinin həmin illər ərzində dövlət sərhədinin mühafizəsi əsasən şəxsi heyətin fiziki imkanları və SSRİ dövründən qalmış köhnə mühəndis texniki qurğular və texniki vasitələr hesabına həyata keçirilmiş, şimal və şimal-qərb istiqamətində yaradılmaqda olan sərhəd məntəqələri uyğunlaşdırılmış binalarda, vaqonlarda yerləşdirilmişdi.

O zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Ulu Öndər Heydər Əliyevin iradəsi, qətiyyəti və nüfuzu sayəsində yalnız muxtar respublikadakı sərhəd infrastrukturları qorunub saxlanıldı və sovet sərhədçiləri hərbi texnika və vasitələri bütünlüklə təhvil verərək ölkəni tərk etdilər. Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycan sərhədçiləri zəruri sərhəd infrastrukturlarının yaradılması işlərinə faktiki olaraq sıfırdan başlamışlar.

### Sərhədlərimiz müstəqillik illərində

Müstəqillik əldə etdikdən və 1991-ci ilin 18 oktyabrında "Müstəqillik haqqında Konstitusiya Aktı"nı qəbul etdikdən sonra milli dövlət quruculuğunun bərpası işlərinə başlanıldı. Müstəqil dövlətin əsas dayağı olan silahlı qüvvələrin, o cümlədən Sərhəd Qoşunlarının yaradılması müstəqil dövlət quruculuğunun əsas tərkib hissələrindən idi. Odur ki, 1991-ci ilin dekabr ayının 9-da Azərbaycan Respublikasının Milli Şurası "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında" Qanun qəbul etdi. Həmin ilin dekabr ayının 16-da isə Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi (DSMK) yaradıldı.

Müstəqilliyin ilk illərində ölkəmizin daxilindəki qeyri-sabitlik digər sahələrdə olduğu kimi, dövlət sərhədlərimizin mühafizəsi işinin təşkilinə də mənfi təsir edirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra dövlətçiliyimizin tarixində yeni mərhələ başlandı, qısa zaman ərzində tənəzzülün yerini inkişaf mərhələsi aldı.

İctimai-siyasi, iqtisadi, mədəni həyatımızın bütün sahələrində olduğu kimi, dövlət sərhədlərimizin toxunulmazlığının təmin olunması işlərində də ciddi dönüş yarandı. Yuxarıda da qeyd etdiyimiz kimi, müstəqillik illərində sərhədlərin mühafizəsi sahəsində əldə edilmiş bütün uğur və nailiyyətlərin kökü hələ ötən əsrin 60-80-ci illərində xalqımızın böyük oğlu Heydər Əliyevin qəbul etdiyi taleyüklü qərarlarla sıx bağlıdır. Məlumdur ki, sovet dövründə Silahlı Qüvvələrdə, o cümlədən Sərhəd Qoşunlarında milli azlıqların xidməti inkişafına qeyri-rəsmi və süni manеələr yaradılırdı.

Ardı Səh. 6

# SƏRHƏD: Vətənin başlanğıcı






## Əvvəli-Səh-5

Yalnız Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində DTK kimi qapalı bir qurumun tərkibində olan Sərhəd Qoşunlarında da azərbaycanlı zabitlərin xidməti inkişafına xüsusi diqqət yetirildi, milli kadrların yüksək vəzifələrə irəli çəkilmələri təmin olundu. 1967-ci ilə qədər milliyyətcə azərbaycanlı olan sərhədçilər sırasında yalnız 1 nəfər – Mustafa Nəsirov polkovnik rütbəsini aldığı halda, artıq 70-ci illərin sonunda bu rəqəm 10-a çatmışdı.

Milli silahlı qüvvələrin, o cümlədən də Sərhəd Qoşunlarının peşəkar zabit heyəti ilə komplektləşdirilməsinə ünvanlanmış müstəsna əhəmiyyətli addımlardan biri də 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması olub. Azərbaycanlıların hərbi peşələrə yiyələnməsini təmin etmək, milli hərbi kadrlar yetişdirmək məqsədi ilə təsis edilmiş məktəb milli ordu quruculuğu sahəsində böyük əhəmiyyətə malik olmuşdur.

1995-97-ci illərdə Azərbaycan-Rusiya sərhədində Xudat Sərhəd Dəstəsi və Şəki Əlahiddə Sərhəd Komendantlığı, Azərbaycan-Gürcüstan sərhədində isə Zaqatala və Şəmkir sərhəd dəstələri yaradılmış, Sərhəd Qoşunlarının formalaşması prosesi yüksək məsuliyyətlə aparılmışdır.

Üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə 1992-ci ilin avqust ayının 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılmasından, şimal və şimal-qərb sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin yaradılmasına qədər bütün proseslər Ümummilli Liderin adı ilə bağlıdır. Belə ki, Ulu Öndər müstəqil dövlətimizin sərhədlərinin qorunması, Sərhəd Qoşunlarının yaradılaraq formalaşdırılması proseslərini daim nəzarətdə saxlamış, bu sahənin müasir tələblər səviyyəsinə qaldırılması üçün müvafiq qərarlar vermişdir. Nəticədə Azərbaycanın öz sərhədlərini müstəqil qorumağa qadir olması hamıya sübut edilmiş, dövlət sərhədinin mühafizəsində müasir texniki vasitələrin tətbiqi, dəniz sərhədlərinin mühafizəsi sisteminin və sərhəd aviasiyasının yaradılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün zəruri baza yaradılmışdır.

### Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır

Ümummilli Lider Heydər Əliyevin siyasi və mənəvi varisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürüdür.

Elə bütün bunların nəticəsidir ki, ötən 20 ildən artıq dövrdə sərhəd infrastrukturlarının yaradılması, sərhədçilərin xidməti-döyüş şəraitinin yaxşılaşdırılması, peşə bacarığının, səfərbərlik və döyüş qabiliyyətinin artırılması, yeni texnika, avadanlıq və vasitələrlə təminat sahəsində məqsədyönlü tədbirlər həyata keçirilib.

"Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır" deyən dövlətimizin başçısı onu da bildirir ki, Azərbaycanda ictimai-siyasi sabitlik, təhlükəsizlik, əmin-amanlıq ölkəmizin inkişafı üçün əsas şərtdir. Biz elə etməliyik ki, sərhədlərimiz tam şəkildə qorunsun. Dostlarımız üçün qapılar açıq, düşmənlər üçün bağlı olmalıdır. Sərhəd mühafizəsinin təşkili nəticəsində, Azərbaycanda daxili təhlükəsizliyin təmin edilməsi daha da yüksək səviyyədə təşkil olunur.

Bu sahədə "Azərbaycan Respublikası dövlət sərhədlərinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması və Proqramdan irəli gələn vəzifələrin icrasının sürətlə və keyfiyyətli şəkildə həyata keçirilməsi yüksək nəticələrin əldə edilməsinə şərait yaradıb.

Zabit heyətinin komplektləşdirilməsi ötən 20 il ərzində də xüsusi diqqət mərkəzində olub. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2007-ci il iyun ayının 12-də yaradılan Dövlət Sərhəd Xidmətinin Akademiyası ixtisaslı ali hərbi təhsilli zabit kadrlarının, komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasında mühüm rol oynamaqla, sərhədlərimizin daha mükəmməl şəkildə qorunmasını təmin edir.

Son illərdə yeni sərhəd infrastrukturlarının yaradılması, sərhədçilərin xidməti döyüş şəraitinin yaxşılaşdırılması, peşə bacarığının, səfərbərlik və döyüş qabiliyyətinin artırılması, yeni texnika, avadanlıq və vasitələrlə təminat sahəsində də mühüm tədbirlər görülmüşdür. Sərhəd dəstələrində videonəzarət sistemlərinin yaradılması, sərhəd zastavalarında müşahidə kameralarının quraşdırılması və görüntülərin dəstə qərargahına ötürülməsi nəticəsində, bilavasitə sərhəd xəttində xidmətin təşkilinə nəzarət gücləndirilmişdir.

### Sərhədçilərimiz Vətən müharibəsində

2020-ci ilin 44 günlük Vətən müharibəsi milli ordumuzun zabit və əsgərləri ilə yanaşı, sərhədçilərimizin də nəyə qadir olduqlarını göstərdi. Belə ki, Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandanın Dövlət Sərhəd Xidmətinin qarşısında qoyduğu döyüş tapşırıqlarının uğurlu icrası üçün bütün qüvvə və vasitələr tam səfərbər edildi. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında şücaət və qəhrəmanlıq göstərdilər.

Vətən müharibəsinin ilk günündən başlayaraq Azərbaycan sərhədçiləri tərəfindən Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazi azad edildi, o cümlədən 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirildi. Qədim Xudafərin körpüsündə və dövlət sərhədlərimiz boyu müqəddəs torpaqlarımıza Azərbaycan bayrağı sancıldı, Ermənistanla dövlət sərhədində strateji yüksəkliklər azad olundu.

Dövlət Sərhəd Xidməti tərəfindən "Harop", "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarının peşəkarcasına tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, raket sistemləri, zenit-raket kompleksləri, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələri və çoxsaylı canlı qüvvəsi zərərsizləşdirildi, ümumilikdə 290 düşmən hədəfi məhv edildi.

DSX pilotları Abbas Qasımov və Xalid Gözəlov da müharibənin ilk günü şəhidlik zirvəsinə ucaldılar.

İkinci Vətən Müharibəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin 47 hərbi qulluqçusu şəhid olub, 197 nəfər yaralanıb və ya müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Vətən müharibəsinin döyüş əməliyyatları zamanı rəşadət və şəxsi igidlik nümunələri göstərmiş 12 nəfər Azərbaycan sərhədçisi (onlardan 4 nəfər ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, 176 nəfəri müxtəlif ordenlərlə, 5 203 nəfəri isə müxtəlif medallarla təltif olunub.

Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə yeni zastavalar yaradılmışdır.

### Vətən sərhəd, sərhəd Vətəndir...

Bəli, sərhəd Vətəndir, Vətən də sərhəddir. Bu iki məfhum eyni fikri ifadə edir. Ona görə də sərhədçilərimiz sərhədlərimizi qorumaqla, Vətəni qoruyurlar. Təhlükəsizliyini onlara etibar edən milyonlarla insanı qoruyurlar. Bu insanlar arasında onların namusu olan nənələr, analar, bacılar, qızlar var. Bu insanlar arasında onlara əzmindən, ərlik və igidliyindən töhfə verən babalar, atalar var. Bu insanlar içərisində onların sabah Vətənə verəcəkləri övladları var. Elə bütün bunlara görə də qədim Azərbaycanın mərdlik, qəhrəmanlıq, rəşadət və namus simvolu olan oğulları 44 günlük müharibədə də olduğu kimi, hər zaman Vətənlə, onun şərəf və ləyaqəti ilə birgədirlər.

Bu oğullar gecə də, gündüz də oyaqdırlar. Gözlərini yuxu tuta bilməz. Onlara nə isti, nə də soyuq öz təsirini göstərə bilməz. Çünki bu oğulların ürəyi Vətən sevgisi ilə döyünür. Bu sevgi olan yerdə isə gecə aydınlıqdır, isti sərinlik, şaxta isə istilikdir. Çünki onların bir andı var: Vətən, namus, şərəf.

Bayramınız mübarək, əziz sərhədçilər! Bu gün Zəfərli ölkəmizdə üzüağ, alnıaçıq şəkildə Vətəni, onun ərazi bütövlüyünü, təhlükəsizliyini qoruyursunuz. Üzünüz hər zaman ağ, başınız dik, alnınız açıq olsun!

***Mətanət Məmmədova***



# ABŞ Yaxın Şərqi tərk etmək fikrində deyil

**_Ekspertlər bildiriblər ki, ABŞ Yaxın Şərqə əməliyyat qrupu və döyüş gəmiləri göndərib ki, bu da onların bölgəni tərk etmək istəmədiyini göstərir. Onların fikrincə, Vaşinqton enerji nöqteyi-nəzərindən Tehrana, Moskvaya və Pekinə belə mühüm bazarı ötürə bilməz. Vaşinqton administrasiyasının Yaxın Şərqə əməliyyat qrupu və hərbi gəmilər göndərməsi ABŞ-ın bölgəni tərk etmək fikrində olmadığından xəbər verir. Yaxın Şərqdə Strateji Araşdırmalar Mərkəzinin (ORSAM) direktoru Ahmet Uysal və Ankaradakı Bəyazid Yıldırım Universitetindən professor Bayram Sinkaya müsahibəsində ABŞ-ın Yaxın Şərqdəki varlığına münasibət bildirib._**

Uysal üç qitənin kəsişmə nöqtəsi olan Yaxın Şərqin dünya ticarəti və enerji qaynaqları baxımından əhəmiyyətli olduğuna diqqət çəkib və əlavə edib: "Mən əvvəldən ABŞ-ın Yaxın Şərqdən ayrılmayacağını deyənlərdənəm". Uysal qeyd edib ki, Çinin bölgəyə marağı artıb, Rusiya isə Ukraynadakı hərbi münaqişəyə baxmayaraq, Yaxın Şərqi tərk etməyib və Afrikada təsirini artırmağa çalışır.

Ekspertin fikrincə, Yaxın Şərqə hakim olan güc dünya ticarətinə də hakim olacaq. Son zamanlar Çin bölgəyə artan maraq göstərir və Pekini cilovlamaq və hegemonluğunu qorumaq istəyənlər üçün Yaxın Şərq regionunda təsir sahibi olmaq vacibdir. Agentliyin həmsöhbəti ABŞ-ın keçmiş prezidenti Barak Obamanın dövründə Vaşinqton administrasiyasının regiondan çəkilmək planının real olmadığını qeyd edərək, Co Baydenin dövründə Amerikanın Yaxın Şərqdəki siyasəti haqqında deyib: "İndi onlar reallığa qayıdırlar".

Uysal ABŞ-ın Əfqanıstandan çıxarılmasının Yaxın Şərqdəki müttəfiqlərini narahat etdiyini və bu narahatlığın bəzi dövlətləri Çin və Rusiya ilə yaxınlaşmağa sövq etdiyini vurğulayıb. O bildirib ki, Çinin vasitəçiliyi ilə İran və Səudiyyə Ərəbistanı arasında barışıq heyrətamiz təsir bağışlayıb. ABŞ və bütövlükdə Qərbin planı iki tərəfi bir-birinə qarşı qoymaq idi.

Son zamanlar Yaxın Şərqdə yeni konyukturanın yarandığını qeyd edən ekspert əlavə edib: "Əvvəllər İran "təhlükəsi" ərəb ölkələrini Qərbə yaxınlaşdırırdı, lakin bu vəziyyət dəyişməyə başlayıb. Bu, ABŞ-ı öz hesablamalarına yenidən baxmağa məcbur etdi, deyə Uysal yekunlaşdırıb.

Professor Bayram Sinkaya vurğulayıb ki, Vaşinqtonun bu addımı İranın Oman və Fars körfəzlərində bəzi ticarət gəmilərini ələ keçirmək cəhdləri və ya ABŞ-la əlaqəli kommersiya maraqlarını təhdid etmək cəhdləri ilə bağlıdır. Ekspert qeyd edib ki, amerikalılar narahatdır ki, onların regiondan çıxarılması Tehranın yolunu açır. "Bu, İranı ruhlandıran hadisələrdən biri idi. Bir tərəfdən, geri çəkilmə ABŞ-ın təhlükəsizlik üzrə tərəfdaşlarını və onların regiondakı müttəfiqlərini təşvişə saldı. Və yəqin ki, yeni addım ABŞ-ın tərəfdaşlarının qorxularını sakitləşdirmək cəhdi kimi qiymətləndirilə bilər. Bölgəni bir az daha çox qorxutmaq və İranı bir az daha qorxutmaq" deyə Şinkay şərh edib.

Onun fikrincə, ABŞ üçün Yaxın Şərqi tərk etmək asan deyil. "ABŞ-ın bölgədəki hərbi mövcudluğu müxtəlif ölkələrlə ikitərəfli hərbi müqavilələrdən asılıdır" deyən ekspert davam edib: "ABŞ-ın Yaxın Şərqi mümkün qədər tez tərk etmək üçün heç bir səbəbi yoxdur. Bunun üçün ABŞ-ın regional maraqları iflasa uğramalıdır. Əsasları ticarətin açıqlığı, yaxud neftə çıxış, neft ehtiyatlarının beynəlxalq bazarlara münasib qiymətlərlə çıxarılmasını təmin etməkdir. ABŞ-ın əsas maraqlarından biri isə regiondakı müttəfiqlərini qoruyub saxlamaqdır".

ABŞ-ın bölgədəki maraqlarının çox dəyişmədiyini vurğulayan Xingkai "Amerikanın müxtəlif təhlükəsizlik narahatlıqları, məsələn, dünyanın müxtəlif yerlərində və Uzaq Şərqdə Çinin yüksəlişi var. Deməli, sual daha çox Yaxın Şərqdən çəkilib-çəkilməməkdənsə, hərbi enerjinizin ağırlıq mərkəzini Asiyaya köçürməkdən gedir".

Təxminən iki il əvvəl ABŞ rəsmilərinin bölgədən çəkilməyəcəkləri ilə bağlı açıqlamalar verdiklərini xatırladan Şinkaya əlavə etdi: "Onlar bunu o zaman açıqladılar. Digər tərəfdən bölgədəki balanslar dəyişir və ABŞ-ın nəzarətindən çıxmağa başlayır".

Sinkaya qeyd edib ki, Səudiyyə Ərəbistanı ABŞ ilə təhlükəsizlik sahəsində ən inkişaf etmiş tərəfdaşlığa malik ölkələrdən biridir, halbuki son 20 ildə iki ölkə arasında münasibətlərdə eniş-yoxuşlar olub. Ekspertin fikrincə, Amerika İsrail istisna olmaqla, müttəfiqlərinin və Səudiyyə Ərəbistanının gözündə inamını böyük ölçüdə itirib. "Buna görə də Birləşmiş Ştatlar Yaxın Şərq siyasətini yenidən qurmaq zərurətini hiss edə bilər, lakin bu proses hərbi güclənmə ilə baş verərsə, bu, müttəfiqlik münasibətlərini o qədər də yaxşılaşdırmayacaq. Görünür, region nisbi sabitlik əldə edib. Bu şərtlər altında ABŞ-ın hərbi çəkisinin artırılması İrana qarşı hədə-qorxudan da artıqdır", - Sinkaya bildirib.

Bu arada qeyd edək ki, ABŞ-ın göndərdiyi üç mindən çox hərbi qulluqçu və döyüş gəmisindən ibarət 26-cı Dəniz Ekspedisiya Qüvvəsi Yaxın Şərqə gəlib. ABŞ Hərbi Dəniz Qüvvələri Mərkəzi Komandanlığından verilən yazılı açıqlamada, iyulun 10-da Virciniyadan ayrılan USS Bataan amfibiya hücum gəmisi USS Cartel Hall desant gəmisi və təxminən üç min əsgərdən ibarət əməliyyat qrupu ilə avqustun 6-da Qırmızı dənizə gəlib. Açıqlamada yeni qoşun və gəmilərin gəlməsi ilə ABŞ-ın Beşinci Donanmasının bölgədəki imkanlarının artacağı vurğulanıb. İyulun 21-də ABŞ Mərkəzi Komandanlığından verilən yazılı açıqlamada, müdafiə naziri Lloyd Austinin Yaxın Şərqə amfibiya hücum gəmisi və ekspedisiya əməliyyat qrupunun göndərilməsini təsdiqlədiyi və gəmilərin yolda olduğu bildirilib. Bu addım İranın Fars körfəzində ticarət gəmilərinin qarşısını almaq cəhdindən sonra atılıb.

ABŞ bildirib ki, İran iyulun əvvəlində Hörmüz boğazında iki neft tankerini ələ keçirməyə cəhd edib və onlardan birinə atəş açıb. ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) iyulun 17-də verdiyi açıqlamada İranın Fars körfəzində ticarət gəmilərini ələ keçirmək cəhdlərindən sonra bölgəyə USS Thomas Hudner esminesi və F-35 döyüş təyyarələrinin göndərilməsi barədə qərar qəbul edildiyi qeyd edilib.

**V.SALAH**

# Azərbaycan-Türkiyə: qardaş dövlət, qardaş ordu!



PREZİDENT İLHAM ƏLİYEV: "Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük"

***Bəli, bu dünyada analoqu olmayan və sərhəd tanımayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir. Bu gün hər iki dövlət yaxşı gündə də, pis gündə də bir-birinin yanındadır, hər iki dövlət eyni yolu yaşayır.***



RƏCƏB TAYYİB ƏRDOĞAN: "Can Azərbaycanla birlikdə göstərdiyimiz həmrəylik sayəsində 30 ildən sonra həm Qarabağ işğaldan azad edildi, həm də Cənubi Qafqaza daimi sülh və sabiltik üçün fürsət yarandı"

Son illər baş verən hadisələr bir daha təsdiqlədi ki, iki qardaş ölkə arasındakı qırılmaz əlaqələr daha möhkəm və sarsılmazdır. Bu gün hər iki xalqın nümayəndələri müdrik siyasi xadim Heydər Əliyevin bu sözlərinə sadiqlik nümayiş etdirirlər. Bütün dünyaya bir daha məlum oldu ki, bu tarixi ifadə sadəcə olaraq sözdən ibarət deyildir. Bu tarixi kəlam iki dost və qardaş ölkənin yolunu daha da işıqlandırıb, bütün sahələr üzrə, o cümlədən ordu sahəsində inkişafı yeni mərhələyə çatdırıb.

Azərbaycan Prezidenti İlham Əliyev cənabları ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iki ay öncə mətbuata bəyanatlarında hərbi və müdafiə sənayesi sahəsində Azərbaycan-Türkiyə münasibətlərinin uğurla davam etdiyini, Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsinin təsadüfi olmadığını vurğulayaraq bildirib ki, 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi: «Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük».

Dövlət başçısı onu da vurğulayıb ki, bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək.

## 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ TÜRKİYƏNİN ORDU MODELİ ÖZÜNÜN UĞURUNU BİR DAHA SÜBUT ETDİ

TƏHLİL

Bəli, 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu gün Azərbaycan qardaşı iki qardaş ölkələr hərbi sahədə fəal əməkdaşlıq edir. Bu gün Azərbaycanın çox güclü ordusu var və hər bir vətəndaş ordumuzla qürur duyur. 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi də ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, səmərəli nəticələr əldə olunur. Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır. Və bu gün Azərbaycan və Türkiyə dövlətlərinin ordu rəhbərliyi arasında keçirilən yüksək səviyyəli görüşlər, iki ordunun hərbi qulluqçularının iştirakı ilə təşkil olunan təlimlər nəticəsində Azərbaycan Ordusunun güclənməsi və müasir tələblər çərçivəsində qurulmasına yönəlik mühüm işlərə imza atılır. Bir sözlə, önəmli olan odur ki, tarixi köklərə söykənən və fundamenti qarşılıqlı etimad prinsipi üzərində qurulan əməkdaşlıq və tərəfdaşlıq bu gün ən yüksək dövrünü yaşayır.

Yüksək beynəlxalq tribunalardan öz sözünü deyən, milli mənafeyini qoruyan, böyük iqtisadi potensiala malik ölkəmiz İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoyaraq əldə etdiyi Qələbə ilə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. Qürurverici haldır ki, bu gün Azərbaycan ilə Türkiyə arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib. Ölkələrimiz milli maraqlara uyğun beynəlxalq əhəmiyyətli böyükhəcmli layihələrin reallaşmasına birgə səy göstərir. Hərbi sahədə də müttəfiq olan iki qardaş ölkə 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqaviləyə əsasən müstəqilliyin qorunması, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığı istiqamətində bir-biri ilə sıx əməkdaşlıq edirlər. Müqavilənin ikinci maddəsində ölkələrdən hər hansı biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldığı halda, öz imkanları daxilində bütün zəruri tədbirlərin görülməsi məqsədilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri nəzərdə tutulur. Müqavilədə həmçinin, hər iki dövlətin səylərini birləşdirməsi, müdafiə və hərbi-texniki sahədə siyasətlərinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq perspektivləri öz əksini tapıb. Bu baxımdan, Cənubi Qafqaz regionunda söz sahibi olan Azərbaycan qardaş Türkiyə ilə birgə beynəlxalq sülhə, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir, sülhü təhdid edən çağırışlara qarşı səylərini birləşdirirlər. Bütün bunların fonunda bir-birinə qarşılıqlı yardım göstərmək, Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində mühüm işlər həyata keçirilir. Müntəzəm olaraq keçirilən birgə təlimlər isə hər iki ölkənin silahlı qüvvələri arasında təcrübə mübadiləsi, hərbi biliklərin mənimsənilməsi yönündə mühüm əhəmiyyət kəsb edir. Və bu təlimlərin böyük əksəriyyəti hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulan Türkiyə dövləti ilə birgə yerinə yetirilir.

Azərbaycan Prezidenti İlham Əliyev cənablarının sözlərinə görə .

## "HƏRBİ TƏLİMLƏR TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİNİN, QARDAŞLIĞININ NÖVBƏTİ TƏZAHÜRÜDÜR"

Göründüyü kimi, iki ölkə arasındakı hərbi əlaqələrin inkişafına təkan verən ən önəmli amillərdən biri də birgə hərbi təlimlərin keçirilməsidir. Bir sözlə, iki ölkənin münasibətləri unikal bir nümunəyə çevrilib. 44 günlük Vətən müharibəsində Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, daha bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. Postmüharibə dövrünün reallıqları da bu gerçəkliyi bir daha təsdiqləyir. "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi" deyə Prezident İlham Əliyev çıxışında bildirib.

Məhz iki qardaş dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi .

## "ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI İLƏ TÜRKİYƏ VƏ AZƏRBAYCAN RƏSMƏN MÜTTƏFİQ OLDULAR"

Bəli, müasir Azərbaycanın tarixində müstəsna yer tutan hadisələrdən biri də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsinin imzalanmasıdır. Bu hadisə iki qardaş dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi şanlı tariximizin ən qürurverici səhifələrindən biridir.

"Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular", - deyən Azərbaycan Prezidenti tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi olduğunu qeyd edib: "Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir".

Bəli, Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bu Bəyannamənin müddəaları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin bir çox aspektini əhatə etsə də, Hərbi Doktrinada nəzərdə tutulan xarici hərbi və siyasi təhdidlərin neytrallaşdırılmasında və ya onlara qarşı balans yaradılmasında xüsusi əhəmiyyət kəsb edir. Hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi isə təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Və bu gün müdafiə sənayesində önəmli rolu olan şəxslərdən biri də Səlcuq Bayraktardır ki, məhz onun təşəbbüsü ilə bu gün türk hərbi sənayesi dünyanın aparıcı hərbi qüvvəsi hesab olunur.

Bir sözlə, hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun professional inkişafında böyük rol oynayacaq. Prezident İlham Əliyevin dediyi kimi, Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür. Bizim qardaşlığımız əbədi və sarsılmazdır! Bütün dünya bilsin ki, Azərbaycan-Türkiyə əməkdaşlığı və qardaşlığı möhkəmdir, sarsılmazdır. Çünki Azərbaycan və Türkiyə təkcə iki dövlət, bir millət deyil - qardaş dövlət, qardaş ordudur!

**RƏFİQƏ KAMALQIZI**

# Volskidən bu günümüzə





## BMT Təhlükəsizlik Şurasında müzakirələr və nəticə





*Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanı "konstruktiv şəkildə qarşılıqlı fəaliyyət göstərməyə və BMT Təhlükəsizlik Şurasından öz maraqları naminə istifadə etməyi dayandırmağa" çağırıb, onun Laçın yolunda vəziyyətlə bağlı Nyu-Yorkda iki gün əvvəl keçirilən fövqəladə iclasın yekunundan nəticə çıxarmağa dəvət edib. İrəvan isə qeyd edir ki, dəhlizin açılması üçün beynəlxalq ictimaiyyətin Bakıya çağırışı əldə edilən əsas uğurdur. Rusiya tərəfi humanitar məsələlərin həlli üçün bütün tərəflərin fikirlərinin nəzərə alınmasının, eləcə də alternativ yollardan istifadə edilməsinin vacibliyini vurğulayıb.*

ANALİZ

Bu, Ermənistanın təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurasının üçüncü iclasıdır ki, bu iclasda Qarabağda ermənilərin yaşadığı ərazilərdə vəziyyət müzakirə olunur. Ermənilər iddia edirlər ki, Laçın yolundan yüklərin daşınmaması səbəbindən 250 gündür blokada şəraitində yaşayırlar. Azərbaycan tərəfinin təklif etdiyi alternativ yolları isə onlar qəbuledilməz hesab edirlər. 2020-ci ildə qırx dörd günlük müharibədə qalib gələn Azərbaycan İrəvanın Qarabağda yaşayan ermənilərlə bağlı narahatlığını öz ölkəsinin daxili işlərinə qarışmaq kimi qiymətləndirir. Bu arada, Ermənistan tərəfi, o cümlədən separatçılar Azərbaycan, Ermənistan və Rusiyanın 2020-ci ilin noyabrında imzaladığı üçtərəfli sazişin 6-cı bəndini əllərində bayraq edərək bildirirlər ki, Laçın yolu Qarabağın Ermənistanla əlaqəsini təmin etməli və Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalmalıdır. Əgər ermənilər üçtərəfli Bəyanatın şərtlərinə əməl olunmasına can atırlarsa, onda onların da bu maddələri yerinə yetirmələri gərəkdir. Bəyanatda Qarabağdan bütün erməni silahlı qüvvələrinin çıxarılması, Naxçıvana dəhlizin açılması, qaçqınların öz doğma yurdlarına qayıtması onların təhlükəsizliyinin qorunması da qeyd olunub. Ermənistan və yaxud Qarabağdakı ermənilər bu naddələrdən heç olmasa birini yerinə yetiriblərmi? YOX.

Ermənistandakı və Qarabağdakı ermənilər elə düşünürlər ki, bu Bəyanatın şərtlərinə əməl etmək yalnız Azərbaycana aiddir. Amma bunun belə davam edə bilməyəcəyini hər kəs bilir. Bəli, bu gün Qarabağın erməni əhalisinin Ermənistanla əlaqəsi qismən məhdudlaşıb. Beynəlxalq Qızıl Xaç Komitəsinin maşın karvanı hər iki istiqamətə yüklərin daşınması ilə məşğuldur. Həm də həmin sərnişinlər nə Şuşa, nə, Bərdə, nə Lənkəran sakinləri deyil, Qarabağdakı erməni sakinlərdir. Əvvəllər Ermənistandan hər gün 400 ton yük gətirilirdi. Yol tamamilə Rusiya sülhməramlılarının nəzarətində olduğu üçün ora gətirilən və oradan daşınan yüklərin nədən ibarət olduğu Azərbayca hökumətinə məlum deyildi. Rəsmi Bakı Laçın yolu ilə Azərbaycanın yeraltı sərvətlərinin daşındığını, hərbi təyinatlı yüklərin isə separatlılara daşındığı barədə tutarlı faktlar əldə edəndən sonra yol həmin yüklərin üzünə bağlandı. Bununla da indiyədək Azərbaycanın sərvətlərini talayanların qazanc yeri kəsildi və beynəlxal səviyyədə "erməni həyasızlığı" başlandı. Hətta Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan BMT Təhlükəsizlik Şurasının iclasının iştirakçılarını Laçın yolunun açılmasını tələb etməklə başqa ölkənin daxili işlərinə qarışmağın ən böyük nümunəsini göstərdi.

Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev İrəvanın Qarabağdakı vəziyyəti humanitar böhran kimi təqdim etmək cəhdlərini "siyasi kampaniyanın bir hissəsi" adlandırdı. İclasda çıxış edən BMT Təhlükəsizlik Şurasının üzvlərinin fikirləri qismən haçalanıb. Fransa birbaşa erməni tərəfini dəstəkləyib. ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Linda Tomas-Qrinfild isə Vaşinqtonun Qarabağdakı humanitar vəziyyətlə bağlı narahatlığını vurğulayıb və Azərbaycan hökumətinə bəzi çağırışlar edib. Eyni zamanda, Birləşmiş Ştatlar humanitar yüklərin çatdırılması üçün Azərbaycanın təklif etdiyi əlavə marşrutlar məsələsinin müzakirəsini mümkün hesab edib.

Digərləri, o cümlədən Türkiyə haqlı olaraq Azərbaycanın tərəfini tutub. Ankara İrəvanın Bakını ittiham etmək üçün BMT Təhlükəsizlik Şurasından istifadə etməsindən narahatdır. Türkiyənin dünya təşkilatındakı daimi nümayəndəsi Sedat Önal bildirib ki, Azərbaycanın öz suveren ərazisində istədiyi hər şeyi etmək hüququ var. O, həmçinin Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərə yüklərin çatdırılması üçün alternativ Ağdam-Xankəndi marşrutundan istifadə etməyə çağırıb.

Belə ki, iclasda konsensus tapılmadığından heç bir qərar və ya qətnamə qəbul edilməyib. Cənubi Qafqaz politologiya klubunun rəhbəri İlqar Vəlizadə bildirib ki, BMT çərçivəsində bəzi qətnamələr və ya sənədlərin qəbulu ilə Azərbaycana siyasi və diplomatik təzyiq göstərmək cəhdləri əsassızdır, xüsusən də danışıqlar prosesi aktivdir. "Nəzərə alsaq ki, danışıqlar prosesinin əsas moderatorları BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ölkələrdir, onda onların mövqeyinin nə qədər ciddi olduğunu başa düşmək olar. Onlar bu müzakirənin təşəbbüskarı olan Ermənistan tərəfinə açıq şəkildə bildirdilər ki, heç bir tərəfin mövqeyini tuta bilməzlər", - ekspert qeyd edib. Onun sözlərinə görə, iştirakçıların əksəriyyəti erməni tərəfinin mövqeyini dəstəkləyibsə, Rusiya nümayəndəsi Bakının narahatlığına diqqət çəkib ki, bu da Rusiyanın danışıqlar prosesinin əsas moderatorlarından biri kimi roluna uyğundur. O vurğulayıb ki, moderator obyektiv olmalı və bütün tərəflərin fikirlərini nəzərə almalıdır. "Belə olan halda, çıxış, xüsusən regional kommunikasiyaların açılması ilə bağlı səslənən təkliflər kontekstində göstərici idi. Rusiya nümayəndəsi Azərbaycan tərəfinin təklif etdiyi alternativ Ağdam-Xankəndi marşrutunun mövcudluğuna diqqət çəkib. Bu, kifayət qədər balanslaşdırılmış mövqedir", - Vəlizadə vurğulayıb.

Bakı müzakirələrin nəticələrini öz qələbəsi kimi qiymətləndirir. Avqustun 17-də Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayaraq, Ermənistanı Laçın yolunun açılması üçün BMT Təhlükəsizlik Şurasının dəstəyini almaq cəhdinin növbəti dəfə iflasa uğradığını qeyd edib. Azərbaycan ümid edir ki, Ermənistan nəhayət ki, problemlərin həllinin yolunun konstruktiv qarşılıqlı fəaliyyətdən, habelə beynəlxalq hüquq norma və öhdəliklərinin vicdanla yerinə yetirilməsindən keçdiyini başa düşəcək. BMT Təhlükəsizlik Şurasının bir çox üzvlərinin vurğuladığı kimi, regionda sülh və sabitliyin əsasını həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyünün tanınması təşkil edir.

Ermənistanın baş naziri Nikol Paşinyan isə hökumətin iclasında bildirib ki, BMT Təhlükəsizlik Şurasının iclasının əsas nailiyyəti beynəlxalq birlik tərəfindən Laçın yolunun blokadasının təsbit etməsi olub. BMT Təhlükəsizlik Şurasındakı müzakirə Qarabağda humanitar böhranın mövcudluğunu və Qarabağda yaşayan ermənilərinin həyatı və təhlükəsizliyinin guya sual altında olduğunu təsdiqləyib. Ermənistan hökumətinin başçısı bildirib ki, BMT Təhlükəsizlik Şurası Azərbaycanın Beynəlxalq Məhkəmənin qərarlarına əməl etməməsini də qeydə alıb. O qeyd edib ki, beynəlxalq ictimaiyyət dəhlizin açılması ilə bağlı Azərbaycana kollektiv çağırış səsləndirib. Təbii ki, Paşinyanın dedikləri reallıqdan tamamilə uzaqdır və baş nazirin təxəyyülünün məhsuludur.

"Yekun qərar moderatorlar - Rusiya və ABŞ arasında böhranın həllinə yanaşmada fərq olduğu üçün deyil, Rusiya ilə ABŞ arasında faktiki açıq münaqişə olduğu üçün qəbul edilib. Yəqin ki, tərəflər bunu başqa siyasi qərarlara ötürmək istəməyiblər", - deyə siyasi müşahidəçi David Petrosyan bildirib. O, BMT Təhlükəsizlik Şurasının iclasında iştirak edənlərin əksəriyyətinin Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolunun Laçın yoluna alternativ ola bilməyəcəyi qənaətində olduğuna diqqət çəkib. "Bu o deməkdir ki, Laçın yolu ilə bəzi yüklərin daşınmasına məhdudiyyətlər davam edəcək və ona görə də Qarabağda humanitar vəziyyət daha da pisləşəcək. Təsadüfi deyil ki, burada müraciətlər səslənməyə başlayır, bunun mənası odur ki, ermənilər çətin seçim qarşısında qalıblar: ya hər şeyi qoyub, kollektiv şəkildə Ermənistana təxliyə olunsunlar, ya da problemi güc yolu ilə həll etməyə çalışsınlar", ekspert qeyd edib.

Qeyd edək ki, BMT Təhlükəsizlik Şurasında müzakirələr bitər bitməz separatçıların yeni bir "həll planı" ortaya atıldı. Daha doğrusu separatçılar Rusiyanın xarici işlər naziri Sergey Lavrovun 14 maddəlik planı. Bu "plan"ın Lavrovun adından separatçılar hazırlayıbsa da, Lavrovun özü hazırlayıbsa da bunu bir cavabı olmalıdır. Əgər təşəbbüs Lavrovdan gəlibsə, onda qətiyyətlə demək olar ki, Qarabağ münaqişəsinin yaranması, inkişafı və nəticəsi barədə plan Moskva tərəfindən işlənib. Lavrov bununla Volskinin yarımçıq qalan işlərini davam etdirdiyini də düşünə bilərik.

**V.VƏLİYEV**



# Ankara sülh toxumunu əkmək istəyir

## Vladimir Putinin Türkiyədə olacağı gözlənilir

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ankaraya Rusiya və Ukrayna arasında əsas vasitəçi statusunu qaytarmaq ümidini itirmir. Vladimir Putinlə gözlənilən görüş zamanı o, Rusiya lideri ilə taxıl müqaviləsinin bərpası ilə bağlı danışıqlar aparmaq niyyətindədir və hesab edir ki, bu, Rusiya-Ukrayna münaqişəsinin həlli istiqamətində bir addım ola bilər. Türkiyə mətbuatının yazdığına görə, cənab Putinin "yaxın günlərdə" ölkədə olacağı gözlənilir. Əgər Rusiya Federasiyasının Prezidenti tezliklə Türkiyəyə uçarsa, bu, onun 24 fevral 2022-ci il tarixindən sonra NATO ölkəsinə ilk səfəri olacaq.***

Rusiyaya taxıl sazişinə qayıtmaq üçün bir aylıq uğursuz çağırışlardan sonra belə görünür ki, İstanbul razılaşmalarını bərpa etmək ümidini yalnız Türkiyə itirməyib. Ankara növbəti dəfə Rəcəb Tayyib Ərdoğanın Ukrayna kənd təsərrüfatı məhsullarının Qara dəniz vasitəsilə dünya bazarlarına ixracına maneənin aradan qaldırılması ilə bağlı razılığa gəlmək niyyətində olduğu Vladimir Putinin respublikasına səfərini gözlədiklərini açıqlayıb. Ötən gün Türkiyə mediası cənab Putinin Türkiyəyə səfərinin avqustun sonu və ya sentyabrın əvvəlində baş tutacağını yazmışdı. Rusiya hakimiyyəti bu məlumatı təsdiqləməyib, baxmayaraq ki, onlar üzbəüz danışıqların, üstəlik, hər iki ölkədən birinin ərazisində aparıla biləcəyini etiraf ediblər. Eyni zamanda, görünür, cənab Ərdoğanın cənab Putinlə şəxsən taxıl müqaviləsini və bununla bağlı məsələləri müzakirə etməsi o qədər vacibdir ki, Rusiya Federasiyasının Prezidenti Türkiyəyə getməkdən imtina edərsə, Ərdoğan özü Rusiyaya gəlməyə hazırdır.

Bununla belə, Ankara açıq-aşkar danışıqları Türkiyədə təşkil etməkdə qərarlıdır, bunu Rəcəb Tayyib Ərdoğanın Vladimir Putinin gözlənilən səfəri ilə bağlı razılaşdırılmış tarixin olmaması istisna olmaqla, həll olunmuş məsələ kimi dəfələrlə səsləndirdiyi bəyanatlar bir daha təsdiqləyir. Baxmayaraq ki, "Milliyet" qəzeti Rusiya Federasiyası prezidentinin artıq "yaxın günlərdə" Türkiyəyə gələcəyini iddia edir.

Əgər məlumat doğru çıxarsa və siyasətçilər arasında dialoq həqiqətən Türkiyə ərazisində baş verərsə, Vladimir Putin üçün bu, 24 fevral 2022-ci il tarixindən sonra NATO-nun üzvü olan ölkəyə ilk səfəri olacaq. Həm də bu ilin martında Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən onun həbsinə dair orderin verilməsindən sonra ilk xarici səfəri olacaq.

Cənab Ərdoğan belə bir səfərin özü də faydalanacaq. Taxıl müqaviləsinin pozulmasından əvvəl Türkiyə lideri dəfələrlə bəyan edib ki, Ankara Moskva ilə Kiyev arasında yeganə uğurlu vasitəçidir və qonşular arasında münaqişənin həllinə hamıdan daha çox yaxınlaşır.

İyulun 17-dən sonra Rusiya Federasiyası İstanbul müqavilələrindən çıxmaq qərarına gəldikdən sonra Türkiyənin xüsusi statusu sönməyə başladı və münaqişə tərəfləri arasında vasitəçi olmaq istəyənlərin sayı nəzərəçarpacaq dərəcədə artdı. Ona görə də Rusiya prezidenti ilə Türkiyə torpağında dialoq cənab Ərdoğana bir neçə praktiki və imic problemini bir anda həll etməyə kömək edərdi.

Üstəlik, taxıl sazişi kontekstində beynəlxalq ictimaiyyət müəyyən konsensus formalaşdırıb. Birincisi, onu bərpa etmək lazımdır. Bu o deməkdir ki, uğurlu olarsa, Ankaranın "payları" bir anda bahalaşacaq. Ankaraya xüsusi ümidlər həm Avropa İttifaqında, həm də ABŞ-da müzakirə olunub. Ötən gün Ukraynanın xarici işlər naziri Dmitri Kuleba qeyd edib ki, "Türkiyə diplomatiyası Rusiya diplomatiyası ilə işləyir" və bu, taxılla bağlı razılaşmaların canlanmasına səbəb ola bilər. Türkiyənin müdafiə naziri Yaşar Gülər bu yaxınlarda demişdi: "Demək olar ki, bütün dünya liderləri və BMT-nin baş katibi bu problemi yalnız Ərdoğanın həll edə biləcəyinə inanırlar. Rusiya ilə Ukrayna arasında müharibə başlayandan sonra hamı bildi ki, bu iki ölkə bütün dünyanın dolanışığıdır. Oradan tədarükün dayandırılması çox ciddi nəticələr verdi. Əgər təchizat yoxdursa, deməli, aclıq təhlükəsi var... Ərdoğan böyük səy göstərir. Və əminəm ki, o, məsələni həll etməyə qadirdir".

Türkiyə mətbuatının mənbələrə istinadən verdiyi məlumata görə, son günlər Ərdoğanla Putinin görüşü ərəfəsində Ankara ABŞ, Aİ, Ukrayna və Rusiya ilə diplomatik təmasları gücləndirib. TASS agentliyinin diplomatik mənbəsi də Türkiyə Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və Ticarət Nazirliyi vasitəsilə "Ukrayna, ABŞ və Aİ ilə çoxtərəfli diplomatik işin" intensivləşdirilməsini təsdiqləyib.

***Vəli Vəliyev***

# Ermənistanın sülh danışıqlarını pozmaq üçün yeni cəhdi



Sabir Şahtaxtı,
siyasi elmlər üzrə
fəlsəfə doktoru

***... Görünür Paşinyan hakimiyyəti ya BMT Təhlükəsizlik Şurasında aldığı sarsıdıcı zərbədən xilas olmaq üçün vurnuxmağa başlayıb***

**Ekspert rəyi**



Qafqaz bölgəsinə ayaq açandan bəri fitnə toxumu səpməklə zaman-zaman öz mövqelərini gücləndirməyə çalışan erməni millətçi dairələri nəyin bahasına olursa-olsun əsassız iddialarını qorumağa çalışırlar. Keçmiş SSRİ-nin dağılmasından sonra dünyadakı siyasi düzümün kökündən dəyişməsi onların düşüncəsinə çatmır ki, çatmır. Təcavüzkar Ermənistanı əsarətində saxlamaqla öz toplumunu belə əzdikcə əzən bu millətçilik riyakarlıqdan və hiyləgərlikdən başa bir şey tanımır. Bu riyakar millətçiliyin tipik nümayəndəsi olan baş nazir Nikol Paşinyanın hərdəmxəyal qərarları dediklərimizə real nümunələr çoxluğudur. Mövcud Ermənistan rejimi saxta mövzular uydurmaqla ictimai rəyi çaşdırmaq cəhdlərində özündən əvvəlki hakimiyyətləri də çox-çox qabaqlayıb.

Şuşada sərxoşcasına rəqs etməyin, Cəbrayıla xəyalı yol çəkməyin bədəlini 44 günlük Vətən müharibəsində ağır ödəyən Ermənistanın baş naziri Nikol Paşinyan indi də bildirib ki, gələn həftə Yerevandan Azərbaycanla həmsərhəd Qafan şəhərinə müntəzəm uçuşlar başlayacaq. Hazırda regiondakı bütün beynəlxalq iqtisadi layihələrdən məhrum olan Ermənistanın öz əhalisinin elementar ehtiyacları təmin etmək üçün xarici ölkələr və beynəlxalq təşkilatlar qarşısında davamlı olaraq əl açıb dilənçilik etməsi heç kəsə sirr deyil. Belə bir vəziyyətdə Qafandakı hava limanının istifadəyə hazırlanması üçün vəsaitin sərf edilməsinin səbəb və məqsədləri çoxlu suallar yaradır. Ermənistanın sülh razılaşması olmayan başqa bir dövlətin sərhədindən bir neçə onlarla metr aralıda hava limanı tikilməsi cəfəngiyyatdır. Azərbaycanın mövqelərindən hətta bu hava limanının daxilində baş verənləri aydın görmək və müşahidələr aparmaq mümkündür. İndiyədək Ermənistanda "təhlükəsizlik vəziyyəti ilə əlaqədar" bu hava limanının açılışı bir neçə dəfə təxirə salınıb. Qafan hava limanından eniş edən və səmaya qalxan təyyarələrin Azərbaycanın hava məkanını pozması qaçılmazdır. Belə olan halda "mülki sərnişin daşımaları" ad altında istifadəyə veriləcəyi elan edilən bu hava limanından Ermənistanın hərbi məqsədlər üçün istifadə etməyə çalışacağını düşünmək üçün ciddi əsaslar var.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası ermənilərin yaşadığı Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranmış "humanitar böhran"ın müzakirəsi üçün avqustun 16-da keçirdiyi təcili iclasda işğalçı ölkə və onun təcavüzkar niyyətlərini dəstəkləyən tərəflər növbəti dəfə siyasi-diplomatik rəzillik vəziyyətinə düşüblər. Görünür Paşinyan hakimiyyəti ya BMT Təhlükəsizlik Şurasındakı məlum iclasdakı məğlubiyyəti ört-basdır etmək üçün belə bir addım atmaq qərarına gəlib, ya da erməni din xadimləri və lobbisi Azərbaycana qarşı növbəti təxribat ssenarisini ona qəbul etdirib.



Məlumat üçün qeyd edək ki, dövlət sərhədlərində hava limanlarının tikintisi beynəlxalq hüquqla tənzimlənir. Bu barədə az sonra müfəssəl məlumat verəcəyik. İndi isə başqa bir mühüm informasiya təqdim edək: Azərbaycan Zəngilan hava limanını tikərkən sərhəddən xeyli aralıda müvafiq standartlara cavab verən yer seçdi, marşruta təsir edə biləcək mümkün külək gücünü nəzərə aldı və bununla da təyyarələrin Ermənistanın hava məkanına uçması riskini aradan qaldırdı. Keçmiş Sovetlər birliyi dövründə Qafan hava limanı fəaliyyət göstərirdi, lakin o zaman bütün respublikalar vahid coğrafi məkanın tərkib hissəsi olduğu üçün faktiki olaraq müttəfiq respublikalar arasında hava sərhədləri yox idi. Avropada sərhəd və transsərhəd hava limanları da var. Lakin bütün hallarda bunlar qanunvericiliklə tənzimlənir. Transsərhəd hava limanları ya ümumavropa və yaxud da ikitərəfli istifadə üçün nəzərdə tutulur. Ermənistanın isə Qafan aeroportu ilə bağlı Azərbaycanla heç bir razılaşması yoxdur. Belə olan halda qarşı tərəfə də bəllidir ki, Qafan hava limanının açılması kimi birtərəfli təxribatçı addımlar cavabsız qalmayacaq.

Qeyd edək ki, Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədən zamanı bu şəhərdə yerləşən Azərbaycanın eyniadlı hava limanı erməni işğalçıları tərəfindən tamamilə dağıdılmışdır. Təcavüzkar Ermənistan və qondarma "Dağlıq Qarabağ Respublikası" tərəfindən 2009-2012-ci illərdə təmir olunana Xocalı Hava Limanı ötən dövrdə istifadəyə hazır olsa da, Azərbaycanın qəti etirazları bu aeroportun fəaliyyətinə imkan verməyib. Ermənistanın terrorçu hakimiyyət nümayəndələri vaxtilə Xocalı aeroportundakı təmir işlərini böyük təntənə ilə əvəzolunmaz nailiyyət kimi öz ictimaiyyətlərinə sırıyırdılar. O dövrdə beynəlxalq ekspertlər əsaslandırırdılar ki, Xocalı Hava Limanı mövzusu işğal altındakı Azərbaycan torpaqlarının azad olunması istiqamətində məlum danışıqları pozmaq üçün lazımdır. Almaniya Xristian Demokrat İttifaqının (CDU/CSU) parlamentdəki deputatı, Bundestaqın Səhiyyə Komitəsinin üzvü Yens Şpan hələ 2013-cü ildə bu barədə bildirimişdir ki, Ermənistanın Xocalı Hava Limanını yenidən açması Dağlıq Qarabağ münaqişəsi üzrə sülh danışıqlarının davam etdirilməsini mürəkkəbləşdirəcək. Aviasiya ilə bağlı beynəlxalq hüququn bütün istiqamtlərinə görə, Xocalı Hava Limanı Azərbaycan Respublikasının mülkiyyətidir və ora məxsus bütün suveren hüquqlar bərpa olunacaq.

Mövcud proseslər və işğalçı tərəfin ziddiyyətli qərarları və addımları deməyə əsas verir ki, Qafan hava limanı məsələsi siyasi mövzudur və məqsəd mövcud sülh danışıqlarını konkret hədəfdən yayındırmaqdır. Beynəlxalq Mülki Aviasiya Təşkilatının prinsipləri başda olmaqla mülki aviasiya uçuşları ilə bağlı beynəlxalq hüquq normalarını əsas götürən Azərbaycan Xocalı Hava Limanı üçün gördüyü tədbirləri eynilə Qafan hava limanına da tətbiq edəcək. Azərbaycan öz hava məkanının pozulmasına imkan verməyəcək və buna görə də Qafan aeroportu Xocalının taleyini yaşayaraq o, da eynilə muzey eksponatı olaraq qalacaq.




# Böyük Qayıdış uğurla həyata keçirilir

***Dünya ictimaiyyəti Azərbaycanın Qarabağ iqtisadi rayonunda, işğaldan azad edilən ərazilərdə apardığı tikinti, quruculuq, bərpa işlərinin miqyasını görür və ermənilərin dağıdıcı, vandal xarakteri ilə bizim qurucu, yaradıcı missiyamızı müşahidə və müqayisə edir. Bu müşahidələr və müqayisələrlə dünya ictimaiyyəti işğaldan azad edilən həmin ərazilərin kimə məxsus olduğuna, daha dəqiq desək, həmin torpaqların ermənilərə deyil, Azərbaycan xalqına məxsus olduğuna bir daha əmin olur.***








Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma işlərinin gedişatı həm Azərbaycan xalqının, onun liderinin qurucu olduğu, həm işğaldan azad edilən torpaqların xalqımıza məxsus olduğu, həm də erməni vəhşiliyi səbəbindən öz yurd-yuvalarından didərgin düşmüş, hayların işğalçılıq, etnik təmizləmə siyasəti səbəbindən ata-baba torpaqlarından gen düşmüş həmvətənlərimizin öz doğma yerlərinə, obalarına qayıdışı, Böyük Qayıdış barədə bütün dünyaya çox aydın bir mesajdır.

Vətən müharibəsində möhtəşəm Qələbəmizdən sonra bildiyimiz kimi, ölkəmiz üçün yeni dövr başlayıb və artıq işğaldan azad edilmiş torpaqların bərpası və inkişafı ilə bağlı strategiya hazırdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, indi hədəfimiz Qarabağı dünyanın ən gözəl bölgələrindən birinə çevirməkdir. Bu istiqamətdə görülən işlər də göz önündədir və hədəfimizə doğru inamla irəlilməkdə olduğumuz da təkzib edilə bilməz, hansı ki bu, Böyük Qayıdış barədə proqramın reallaşması deməkdir. Sözsüz ki, Azərbaycanın güclü iqtisadi potensialı var və ölkəmizin bu potensialı işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı quruculuq işlərinin həyata keçirilməsi və bununla da Böyük Qayıdışın uğurla icra edilməsi üçün geniş imkanlar deməkdir. Ölkəmizin iqtisadi potensialı keçmiş məcburi köçkünlərimizin öz yurdlarına qayıtması zamanı üzləşə biləcəkləri bütün problemlərin həlli üçün etibarlı zəmin deməkdir və bir növ, Böyük Qayıdışı stimullaşdıracaq amil olaraq çıxış edir.

Əlbəttə ki, bərpa-quruculuq işləri fonunda işğaldan azad etdiyimiz ərazilərin malik olduğu təbii resurslardan və iqtisadi imkanlardan səmərəli istifadə qeyri-neft sektorunun inkişafını daha da sürətləndirəcək, Qarabağ və Şərqi Zəngəzurun əcnəbi şirkətlər üçün investisiya cəlbediciliyini də artıracaq. Heç şübhəsiz ki, ən yaxın zamanda işğaldan azad edilən ərazilərdə kənd təsərrüfatı sahəsi sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, hansı ki, bu, fermerlər üçün əlverişli qazanc imkanları deməkdir. “Ağıllı kənd”, “ağıllı şəhər” strategiyalarının tətbiqi Qarabağ və Şərqi Zəngəzura qayıdacaq soydaşlarımız üçün yeni imkanlar yaradır və bu, onların həyat səviyyəsinin yüksəldilməsidir. Nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulması, dəmir yolu və avtomobil magistrallarının tikintisi isə işğaldan azad edilən ərazilərimizin simasını kökündən dəyişir. Həmin ərazilərin böyük iqtisadi potensialı, bol təbii ehtiyatları, aqrar istehsal və ixrac potensialı, xarici investisiyaların qoyuluşu üçün böyük perspektivlər vəd edir və bu da gələcəkdə yerli əhalinin məşğulluğunun təmin edilməsi, məşğulluq səviyyəsinin daha da yaxşılaşdırılması üçün də geniş imkanlar yaradır. Bir sözlə, işğaldan azad edilmiş ərazilər indi bütün gücü ilə Böyük Qayıdış üçün hazırlanır. Deməli, həqiqətən də Böyük Qayıdış uğurla həyata keçirilir.

Gördüyümüz və müşahidə etdiyimiz kimi, Şuşada, Ağdamda, Zəngilanda, Füzulidə, Cəbrayılda və başqa azad edilmiş ərazilərdə iri layihələr uğurla davam etdirilir. İşğaldan azad olunan torpaqlarımızda bərpa və yenidənqurma prosesi sürətli, sistemli və planlı şəkildə aparılır. Artıq bu istiqamətdə bir çox əməli addımlar atıldığı göz önündədir. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edən genişmiqyaslı layihələrin icrası və böyük qayıdışın təmin olunması üçün 16 noyabr 2022-ci il tarixdə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə ”Böyük Qayıdış”a dair I Dövlət Proqramı” təsdiq edilib. Dövlət Proqramı 2022-2026-cı illəri əhatə etməklə qarşıya çox ciddi tapşırıqlar qoyub. Bütün bunlar onu deməyə əsas verir ki, Böyük Qayıdış barədə nikbin olmağa haqqımız və əsasımız var.

Quruculuq və abadlıq işləri davam etdikcə, işğaldan azad edilən ərazilər daha da gözəlləşir və öz gözəlliyi ilə bütün dünyanı cəlb edir. Bərpa olunan tarixi abidələr, dini və mədəni obyektlər artıq dünyanın diqqət mərkəzindədir. Həmin ərazilərdə məktəblərin, bağçaların, tibb ocaqlarının, xəstəxanaların tikintisi və istifadəyə verilməsi məhz öz yurdlarına qayıdan vətəndaşların daha yaxşı yaşayışı, firavan həyatı üçün nəzərdə tutulub və bu da diqqətdən yayınan deyil. O da diqqətdən yayınan deyil ki, bütün bu işlər ən yüksək səviyyə, ən yüksək şəkildə həyata keçirilir və Azərbaycan bütün bu işləri heç bir maliyyə dəstəyi olmadan, öz hesabına həyata keçirir. İşğaldan azad edilmiş ərazilərdə zəruri infrastruktur quruculuğu proqramı çərçivəsində beynəlxalq səviyyəli hava limanları, ən müasir səviyyədə hazırlanan magistral yollar həmin əraziləri beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır.

Görünən odur ki, Azərbaycan strateji hədəflərini ardıcıl olaraq reallaşdırır və Böyük Qayıdış yolunda əmin addımlar atılır. İşlərin gedişi onu deməyə əsas verir ki, Böyük Qayıdış keyfiyyətcə yeni bir həyata qayıdış olacaq və 30 il əvvəl hətta yaşayış üçün ən vacib əşyalarını belə götürməyə macal tapmadan öz evlərini tərk etmiş sakinlər layiqli həyat şəraiti ilə təmin olunmuş müasir kəndlərə və şəhərlərə qayıdacaqlar. “İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur”, - deyə 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti cənab İlham Əliyev Böyük Qayıdışın uğurla həyata keçirildiyini diqqətə çatdırıb. Bu isə o deməkdir ki, Azərbaycanın Qələbəsi nəticəsində regionda yaranan yeni şərait, yeni reallıqlar ölkəmiz və bölgə üçün çox böyük perspektivlər vəd edir və Böyük Qayıdışın həmin perspektivlərin hələ başlanğıcıdır.

***İnam Hacıyev***

*Artıq neçə aydır ki, Ermənistanda ikiillik mandatla 100 nəfərdən ibarət Avropa İttifaqının (Aİ) yeni missiyası fəaliyyət göstərir. Halbuki bu missiyanın Ermənistana göndərilməsi mahiyyət etibarilə heç bir zərurətdən irəli gəlmirdi. Həmin missiya Qərbə, xüsusilə bu məsələdə daha canfəşanlıq edən Fransaya çox lazım idi. Sərhəddəki durumu müşahidə altında saxlamaq, Ermənistanla Azərbaycan arasında münasibətləri normallaşdırmaq istiqamətində əlverişli mühit yaratmaq adı ilə fəaliyyətə başlayan bu missiya elə ilk gündən Ermənistanın şərti dövlət sərhədində törətdiyi təxribatları Azərbaycanın ayağına yazmaqla və bununla da beynəlxalq aləmdə ölkəmizə qarşı qərəzli mövqe formalaşdırmaqla məşğuldur. Yəni, bu missiya sırf Ermənistanın maraqlarına xidmət edir.*




# Qərbsayağı missiya

Hətta bu missiya artıq Hayastanın hansısa bir qeyri-hökumət təşkilatı kimi hadisələrə reaksiya verir. Məsələn, bir neçə gün öncə Aİ missiyası Laçın yo¬lunun girişində Ermənistan qoşunlarının yerdəyişməsi və cəmləşməsinin qeydə alınmadığını bəyan edərək, faktiki olaraq sərhəddə qoşunların toplaşması ilə





bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) real faktlar əsasında hazırladığı bəyanatını təkzib etməy cəhd göstərib. Sual olunur: görəsən, həmin missiyaya Azərbaycan XİN-in bəyanatını təkzib etmək səlahiyyətini kim verib?

Bu missiya özünü görməməzliyə, əgər belə demək mümkünsə, korluğa vurmağı da bacarır. Məsələn, iyunun 15-də Laçın sərhəd-buraxılış məntəqəsində ermənilər tərəfindən azərbaycanlı sərhədçiyə atəş açılan zaman bu missiya demək olar ki, səsini belə çıxarmadı. Halbuki hadisə sərhəddə baş vermişdi.

Yeri gəlmişkən qeyd edək ki, Ermənistan Müdafiə Nazirliyi də bu missiyanın adından çıxış edir. Belə ki, işğalçı ölkənin Müdafiə Nazirliyi avqustun 15-də saat 12:20 radələrində Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin Basarkeçər rayonunun Yuxarı Şorca kəndi istiqamətində patrul aparan Aİ müşahidəçilərini və onların avtomobilini, guya, odlu silahlardan atəşə tutduğunu bəyan edib. Hayların bu yalanı elə Aİ-nin müşahidə missiyası tərəfindən təkzib edilib. Amma bir qədər sonra erməni konyakı bu "missionerləri" necə cuşə gətiribsə missiya yeni açıqlama ilə çıxış edib. Onların budəfəki açıqlaması isə belə olub: "Biz təsdiq edirik ki, Avropa İttifaqının Ermənistanda¬kı missiyasının patrulu bizim məsuliyyət zonamızda baş verən atışma hadisəsi za¬manı orada olub. Missiyanın heç bir üzvü zərər çəkməyib". Buna rəğmən, Fransa Xarici İşlər Nazirliyi bu "insidentdən" öz maraqları naminə istifadə etməyə çalışıb. Bu belə təxribatların Aİ missiyası ilə Ermənistan Müdafiə Nazirliyinin birlikdə düzüb-qoşduqlarını bir daha təsdiq etmirmi?

Şübhəsiz, əsasən Fransanın dominantlıq etdiyi bu missiya ölkəmizin "vəhşi" obrazını "əyani misallarla" canlandırmağa, ərazidə baş verənlər haqqında birtərəfli qaydada bəyanatlar verməklə 30 illik işğalçılıq tarixinə malik Ermənistanın bugünkü fəaliyyətlərinə haqq qazandırmağa çalışır. Yəni, Aİ-nın bu missiyası sülhə və təhlükəsizliyə deyil, qarşıdurmaya və təxribata yönəlmiş fəaliyyətə üstünlük verir.

Qərbin bəzi dairələri də fəaliyyətlərində, daha doğrusu, Azərbaycan əleyhinə mübarizələrində kor-koranə bu cür dezinformasiyalara istinad edirlər. Elə son günlər müxtəlif qurumların Azərbaycana qarşı səsləndirdikləri bəyanatlarda bu missiyanın "müşahidələrinə" əsasən salınan izlər aydın görünməkdədir. Bu isə açıq-aydın sübut edir ki, Qərbin siyasi dairələri və onların diktəsi ilə oturub-duran beynəlxalq təşkilatlar bu kimi missiyaların sayəsində beynəlxalq hüquq üzərindən manipulyasiyalarla məşğuldurlar. Şübhəsiz, bütün bu vasitələr Qərbə Azərbaycanı təsir altında, eləcə də Cənubi Qafqazda gərginliyi saxlamaq, sülh danışıqlarına mane olmaq, reinteqrasiya prosesini əngəlləmək üçün lazımdır. Bu mənada Avropa İttifaqının missiyası faktiki olaraq özünün qərəzli və şantajçı mövqeyi ilə təcavüzkar Ermənistanın saxta informasiya daşıyıcısı funksiyasını ustalıqla yerinə yetirməkdədir.

Aİ-nin missiyasının mövcudluğundan asılı olmayaraq, Azərbaycan erməni təxribatlarının qarşısı¬nı əzmlə alır və bununla da öz təhlükəsizliyini təmin etmək üçün lazımi qətiyyəti sərgiləməyə qadir olduğunu göstərir. Bu mənada heç bir qüvvə Azərbaycanı öz haqq işi uğrunda mübarizədən çəkindirmək iqtidarında deyil. Elə avqustun 16-da BMT Təhlükəsizlik Şurasındakı müzakirələrdə Ermənistanın və Qərbin ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün apardıqları təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyanın uğursuzluğa düçar olması faktı bunu bir daha təsdiq edir. Bununla da Ermənistanın və onun havadarlarının beynəlxalq səviyyədə manipulyasiyaları davam etdirmək məqsədilə regionda gərginliyi süni şəkildə alovlandırması bir daha sübut olunub.

Qeyd edək ki, Aİ-nin Azərbaycan və Ermənistana müşahidə missiyası göndərməsi təklifi 2022-ci ilin oktyabrında Praqa görüşündə gündəmə gəlmişdi. O zaman Prezident İlham Əliyev ölkə ərazisində belə bir fəaliyyətə icazə verməsə də, Ermənistanın Azərbaycanla sərhəd bölgələrinə iki ay müddətinə 40 nəfərlik heyətin göndərilməsinə etiraz etməmişdi. Sonrakı mərhələdə ermənipərəst Fransa "bacısı" Ermənistana yardım məqsədilə missiya ilə bağlı çərçivələri pozdu. Nəticədə Azərbaycanın razılığı alınmadan Ermənistana ikiillik missiya göndərmək qərara alındı. Bu missiyanın əsl missiyası isə artıq özünü göstərməkdədir

**_Qvami Məhəbbətoğlu_**



Elçin Bayramlı

# Meşələri kim yandırır?

***Son illərdə dünyada meşə yanğınları artır. Planetin ağciyərləri sayılan Amazon, Sibir, Kaliforniya, Afrika meşələrinin, həmçinin Avstraliya, Türkiyə, Yunanıstan və sair ölkə meşələrinin çox böyük sahələrdə yanması planetimizin ekologiyasına sarsıdıcı zərbə vurub. Sonuncu dəfə isə Havay adaları yandırıldı. İnternetdə yayılan müşahidə kameralarının çəkilişlərində səmadan işıq şüasının yerə doğru yönəldiyi və yanğınların başladığı aydın görünür. Əvvəlki yanğınların da qəsdən törədildiyi haqda çoxsaylı faktlar aşkar olunmuşdu.***

Əldə olunan bir çox faktlar bu yanğınların qəsdən törədildiyini dəqiq şəkildə sübut edir. Bəzi yerlərdə (məsələn, Türkiyədə) xətt üzrə yanğının baş verməsi o əraziyə kosmosdan peyklərlə lazer şüası verilməsi haqda ciddi iddialara səbəb olub. Həmçinin, Sibir və Amazon meşələrində yandırıcı kapsulların tapılması də, bu kapsulların ölkə üzərindən keçən təyyarələrdən səpilməsi haqda ciddi iddialar doğurub. Bir sıra hallarda meşələri qəsdən yandıran adamların ya görüntüləri aşkar olunub, ya da bu adamlar ələ keçib.

Əlbəttə, təbii səbəblərdən yanğınlar da olur, lakin bunlar ümumi yanğınların çox az bir hissəsini təşkil edir. Ehtiyatsızlıqdan yaranan yanğınlar və təbii səbəblərdən baş verən yanğınlar ümumi halların maksimum 20 faiz ola bilər. Dünya mediasında artıq bu qlobal prosesi hansı qüvvənin təşkil etdiyi haqda geniş müzakirələr gedir.

Azərbaycanda da son illərdə meşə yanğınlarının sayı artıb. Meşələrimizdə başlayan yanğınlar nəticəsində böyük ölçüdə ağaclar və otluq sahəsi yanaraq məhv olub. Həmçinin, meşədə yaşayan heyvanlar yanıb. Əlbəttə, bunların bəzilərinin qəsdən törədildiyi aşkar faktdır- məsələn, Qarabağ bölgəsində ermənilərin yandırdığı meşələri misal göstərmək olar. Lakin digər bölgələrdə də baş verən çoxsaylı yanğınlar bir çox hallarda şübhələrə səbəb olur. Bunların hamısını istilərlə, quraqlıqla əlaqələndirmək mümkün deyil. Bundan da isti və quraq illər olub, amma belə çoxsaylı yanğınlar baş verməyib. Belə çıxır ki, dünyada olduğu kimi, bizdə də bu yanğınların çoxu hansısa qüvvə tərəfindən qəsdən törədilir. Lakin bunu araşdırıb sübut etmək çox çətindir.

Təbiətdə hər zaman yanğınlar olur. Bəzən Günəşdən gələn şüalar nəticəsində quru meşələrdə yanğınların baş verdiyi müşahidə edilir. Bəzi ağaclarda müəyyən tezalışan mayelər var ki, günəş şüalarından təsirlənərək yanğına səbəb ola bilir. Lakin Azərbaycan meşələrində həmin mayelərin olduğu ağaclar demək olar ki, yoxdur. Onlar əsasən ekvatroial və tropik ölkələrdə olur. Həmçinin hadisələrin ardıcıl şəkildə baş verməsi göstərir ki, Azərbaycanda da yanğınlar qəsdən törədilir. Bunu insanların üzərinə atmaq lazım deyil. Meşənin torpaq hissəsində kiçik ocaq qalamaqla meşə yana bilməz. İnsanlar ocağı söndürməsələr belə, o öz-özünə sönəcək. Heç kim meşəni yandırmaq istəmir, hamı ocağı tam söndürür.

Artıq dünya ictimaiyyətində belə fikir formalaşıb ki, dünya meşələrini qlobal qüvvələr yandırırlar. Bir çox ölkələrdə meşələri yandırırlar, sonra yerində palma plantasiyaları yaradılır. Qlobal palma yağı istehsalının astromonik artımına baxanda aydın olur. Bundan başqa, ağaclar 5G və elektromaqnit dalğaların udulmasına səbəb olduğu üçün özünü Vahid Dünya Hökuməti adlandıran qlobalistlərə sərf etmir. Onlar dünyanın hər yerinə bu dalğaları ötürə bilmirlər.

Keçən il dünyanın onlarla ən böyük qida anbarlarını da onlar yandırdı. Süni şəkildə qıtlıq yaradırlar. Hazırda dünya ərzaq istehsalı tələbatı artıqlaması ilə ödəyəcək həddədir, amma süni qıtlıq və bahalıq yaradıb böhran təşkil edirlər. Bütün bunlar böyük planın tərkib hissəsidir.

Bu yanğınların qarşısının tam alınması mümkün deyil. Lakin biz heç olmasa bir çoxunun qarşısını ala bilərik. Bunun üçün meşə zolaqlarında, girişlərdə nəzarətçilərin sayını artırmaq lazımdır. Kameraların sayı çoxaldılmalıdır.

Onsuz da Azərbaycanın meşə fondu 10 faizdir, yəni azdır. Səhra ölkələri istisna olmaqla, biz dünyada ən az meşə fonduna sahib ölkələrdən biriyik. Ona görə də mövcud meşələri qorumaq və yeni meşə sahələri yaratmaq lazımdır.

# Ermənilərin başqa variantları yoxdur!

***Məlum olduğu kimi, avqustun 16-da Nyu-Yorkda Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı BMT-nin Təhlükəsizlik Şurasının (TŞ) iclası keçirilib. İclasda ölkəmizin BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT TŞ-da iclasında çıxış edib. Y.Əliyev Azərbaycanın haqlı mövqeyini müdafiə edib və Ermənistanın iddialarının əsassız olduğunu geniş şəkildə izah edib.***

## İrəvanın BMT məğlubiyyəti




### Azərbaycan XİN: "Regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır"

Qeyd edək ki, BMT TŞ-nın toplantısından sonra Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) müzakirələrə dair bəyanat yayıb. Bəyanatda bildirilib ki, Ermənistanın BMT TŞ-da növbəti dəfə öz şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu: "Ermənistanın sözügedən ali orqanı bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir. Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüququn normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini nəhayət ki, anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır".

### Qarabağda separatçıların hərbi texnikanı bir məntəqədən başqasına daşıması, səngərlərin qazılması...

Beləliklə, belə bir nəticə ilə də qeyd etmək olar ki, son günlərin prosesləri vahid ssenari əsasında baş verir. Laçın yolunun başlanğıcına yaxın ərazidə yüklə dolu nəqliyyat vasitələrinin gözləmə mövqeyində dayanması da məhz ssenarinin bir parçasıdır.

Bundan əlavə, Qarabağda separatçıların hərbi texnikanı bir məntəqədən başqasına daşıması, səngərlərin qazılması, erməni diasporunun müxtəlif ölkələrdə başlatdıqları "etiraz aksiyaları", ermənipərəst konqresmenlərinin təxribatçı açıqlama və müraciətləri və nəhayət, BMT TŞ-da iclas, müzakirələr vahid planın, ssenarinin müxtəlif bəndləridir. Sanki xarici ölkələrdən birində yerləşən böyük beyin mərkəzlərindən birinə "Azərbaycanı necə geri addım atmağa məcbur edə bilərik?" mövzusunda fəaliyyət planı hazırlamaq sifarişi verilib. Bu riskli planı hazırlayanlar faktiki erməniləri Azərbaycanla növbəti qarşıdurmaya və itkilərə sürükləyirlər. Anlaşılan odur ki, belə vəziyyətdə sülh mümkün deyil.

Görünür ki, İkinci Qarabağ müharibəsində üzləşdikləri ağır məğlubiyyət ermənilərin əskəriyyətini ağıllandırmayıb, reallığı qəbul etmək istəməyərək Azərbaycana qarşı təzyiqlə nəsə əldə edəcəklərini düşünürlər. Əlbəttə, Ermənistanın bu addımları gözləniləndi. Çünki ermənilər tarixən bu yolla gediblər.

Ermənistan, Qarabağ separatçıları, erməni lobbisi və onlara dəstək verən mərkəzlər Laçın yolu mövzusunu beynəlləşdirməyə çalışırlar. BMT TŞ-da təşkil edilən müzakirələrin qayəsini də məhz bu tipli oyunbazlıq təşkil edirdi.

### Rəsmi Vaşinqton və London Azərbaycana qarşı hər hansı sənəd qəbul etməməklə Bakı ilə münasibətləri korlamaq istəmədilər

Lakin fakt budur ki, BMT TŞ-da Azərbaycan əleyhinə sənəd qəbul edilmədi. O cümlədən, bu, mümkün də deyildi. Çünki qətnamənin qəbulu üçün TŞ-nın daimi üzvlərinin yekdil qərar verməsi lazım idi. Bu isə indiki şəraitdə mümkün deyil. Məsələ burasındadır ki, BMT TŞ-nın daimi üzvləri olan Rusiya və Çin hər zaman digər 3 üzv – ABŞ, Fransa və Böyük Britaniyanın təkliflərinin əleyhinə səs verirlər. Rusiya-Ukrayna




müharibəsi fonunda ikiyə ayrılan qütbün münasibətləri daha da gərginləşib. Ona görə də, daimi üzvlərdən birinin – Fransanın Ermənistanın və Qarabağ separatçılarının xeyrinə qəbul etmək istədiyi sənədə Rusiya dəstək verməyəcək, veto hüququndan istifadə edəcəkdi. Bunun digər səbəbi Moskvanın ABŞ və Avropa İttifaqının Cənubi Qafqazda fəallığından keçirdiyi narahatlıqdır.

Alternativ yol isə var - rəsmi Bakı Ağdam-Xankəndi yolu! Ümumiyyətlə, iclasda "Ağdam-Xankəndi yolu" ifadəsinin tez-tez səslənməsi də çox faydalı oldu. Rəsmi Vaşinqton və London Azərbaycana qarşı hər hansı sənəd qəbul etməməklə Bakı ilə münasibətləri korlamaq istəmədilər.

Qarabağ erməniləri isə Ağdam-Xankəndi yolundan istifadə etməli və Azərbaycan qanunları ilə yaşamalıdırlar. Bundan başqa onların heç bir variantları və yolu yoxdur...

***Afət Tahirqızı***

---



**İLHAM**

# Əli Kərimli özünü diversant kimi aparır

***Mövcud fakt və reallıq ondan ibarətdir ki, dağıdıcı müxalifət partiyaları tarixin arxivinə atılmağa məhkumdur. Çünki sosial bazadan məhrum olan partiyalar, həm də səhv siyasət aparırlar. Xüsusilə də, 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbəyə kölgə salmaq və cəmiyyətdəki yüksək qələbə sevincinə xələl gətirilməsinə cəhdlərin göstərilməsi dağıdıcı müxalifəti ictimai rəyin gözündən tamamilə salıb.***

Hər kəsi bu mənada bir sual düşündürür, müxalifət nədən ermənipərəst mövqe sərgiləyir? Cavabı çox sadə və aydındır: onları erməni maraqlarından çıxış etməyə, xarici ağaları təhrik edir. Hansı ki, xarici maraqlı dairələr onlara maddi və mənəvi dəstək göstərirlər. Yəni, məslək və əqidələrini, milli və dövlətçilik maraqlarını xarici dairələrin ayırdığı pula satırlar. Satqınlıq və xəyanət yolu tutanlar sırasında AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, Şura üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri daha çox tanınır və seçilirlər. Bu üzdəniraq məxluqlar hakimiyyətə qarayaxmaq, iqtidar-xalq birliyinə kölgə salmaq üçün hər cür vasitələrdən istifadə edirlər. Onlar sosial şəbəkələrin insanların həyatına aktiv şəkildə daxil olmasından istifadə edərək milli maraqların əleyhinə antitəbliğat kampaniyası aparır, hakimiyyətə qarşı əsassız ittihamlar irəli sürürlər. Bu baxımdan, dağıdıcı müxalifətin cəmiyyətdə, həm də "sosial şəbəkə müxalifəti" kimi ad çıxarıblar. Günün hansı saatında, dəqiqəsində sosial şəbəkələrə nəzər yetirsən, orada Əli Kərimlinin, Tofiq Yaqublunun, Seymur Həzinin, Fuad Qəhrəmanlının, Gültəkin Hacıbəylinin vurnuxduqlarını görmək olar. Onlar təbii ki, orada söz dueli yaratmaq üçün veyillənmirlər, xalqa qara yaxmaq, dövlətə qarşı şər və böhtanlar irəli sürmək üçün sosial şəbəkələrdədirlər. Təbii ki, çoxsaylı suallar yaranır, bu yaşda, başda insan niyə həyatını və yaşayışını ancaq, sosial şəbəkələrə bağlayıb? Onlar dövlətin tərəqqisinə, xalqın maraqlarına cavab verə biləcək işlər görə bilməzlərmi? Əminəm ki, ətəklərindəki daşları yerə atıb, Sorosdan və digər maraqlı dairələrdən imtina etsələr, normal cəmiyyətin, ağıllı-başlı vətəndaşları ola bilərlər. Sadəcə, o dərəcə çirkabın içindədirlər ki, həm də xarici maraqlı dairələr qarşısında gözükölgəlidirlər ki, cəmiyyətin tələblərinə cavab verə biləcək vətəndaş ola bilmirlər. Misal olaraq qeyd etmək olar ki, "Milli Şura"nın sədri Cəmil Həsənlinin boş-boş söz yığnağından olan kitablarının Avropada tərcümə edilərək çap edilməsini ABŞ-ın Nyu-York şəhərindəki fransız əsilli iş adamı maliyyələşdirib. Əlavə olaraq da qonorar ödənilib ki, həmin qonorarın hesabına C.Həsənli özünə İngiltərənin London yaxınlığındakı qəsəbəsində ev alıb. Düzdür, evin alınmasında ödənilən məbləğin bir hissəsini Cəmil Həsənlinin himayəçiləri dəstək veriblər, lakin ilkin vəsait, qeyd etdiyim kimi, fransız əsilli iş adamından gəlib. Eləcə də T.Yaqublu Gürcüstanın paytaxtı Tbiliside üç otaqdan ibarət evinin alınmasında maliyyə vəsaitini Norveçin Steyner Gilə bağlı fond tərəfindən ödənilib. Gültəkin Hacıbəyli xaricdən bir o qədər qrantlar almasa da, yerli məkrli qüvvələrdən ara-sıra pullar əldə edir. Digər tərəfdən, G.Hacıbəyli təsadüfi seçim zamanı deputat olarkən özünə külli miqdarda var-dövlət qazanıb. Həmin mal-mülkün siyahısını qəzet və saytlar dərc ediblər. İndiki məqamda onun özünü diversant kimi aparan Əli Kərimlinin buyruqqulu kimi aparması, sadəcə, yığdıqlarını və taladıqlarını qoruyub saxlamağa hesablanıb. Lakin anlamır ki, belə gəlsə, onu heç kim, hətta boşboğazlığı və diversant kimi özün təqdim edən Ə.Kərimli xilas edə bilməyəcək.

# Rusiyalı ekspert: “BMT TŞ-nin iclası Azərbaycanın mövqelərinin möhkəmliyini göstərdi”

## *Vitali Arkov: Təhlükəsizlik Şurasında Rusiya Azərbaycanın ərazi bütövlüyünə sadiqliyini bir daha təsdiqlədi*

***Xəbər verildiyi kimi, cümə axşamı gecə Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının Ermənistanın xahişi ilə çağırılan və Laçın yolu ilə hərəkətə məhdudiyyətlər səbəbindən Qarabağın Bakının nəzarətində olmayan hissəsində guya humanitar böhrana həsr olunmuş iclası keçirilib. Görüşdə səsləndirilən bəyanatları və görüşünün nəticələrini politoloq, PolitRUS portalının rəhbəri Vitali Arkov “Moskva-Baku” portalına şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.***

- BMT Təhlükəsizlik Şurasının iclasının nəticələrini dağın siçan doğması ifadəsi ilə əhalisini müalicə üçün ərazini tərk etməsini özləri qadağan edir. Bəs “soyqırımı” kim təşkil edir?! Və beynəlxalq arenada belə “görüşlər” keçirilir, çünki məqsəd Azərbaycanı “kasıb erməni əhalisinə” qarşı soyqırımı törədən təcavüzkar, az qala işğalçı kimi təqdim etmək idi...

Erməni tərəfinin dəfələrlə Laçın yolundan qeyri-dinc yüklərin daşınmasına cəhdləri nəticəsində Laçın yolunda sərhəd-buraxılış məntəqəsi yaratmağa məcbur olan Azərbaycanın yol boyu əslində nələrin daşındığını yoxlamaq və bunu təsdiq edən sənədləri yoxlamaq hüququ var. Əgər erməni tərəfinin gizlədə biləcəyi heç nə yoxdursa, o zaman qalmaqallar nəyə lazımdır?

Fikrimcə, Rusiyanın BMT Təhlükəsizlik Şurasının iclasında Dmitri Polyanskinin təşkilatçılığı ilə Rusiya Federasiyası nüma-




oldu.

Polyanskinin simasında Rusiya Azərbaycanın ərazi bütövlüyünə sadiqliyini bir daha təsdiqlədi. Nümayəndə müavini qeyd edib ki, bəli, Azərbaycan və Ermənistan arasında nizamlanma çərçivəsində Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi təmin edilməlidir, lakin onlar Azərbaycan Respublikasının hüquqi məkanı çərçivəsində təmin ediləcək.

Rusiya nümayəndəsi qeyd edib ki, Azərbaycan və Ermənistan, Azərbaycan və əksinə, Rusiyanın, Türkiyənin, İranın qarnında yeni problemlər yaratmaq üçün vəziyyəti qızışdırmağa ehtiyac duyurlar. Axı hər üç ölkə Azərbaycan və Ermənistanla sıx bağlıdır. Rusiyada nə qədər erməni və azərbaycanlı yaşayır, biz də yaxşı bilirik. Onlar da bizim xalqımızdır. Ona görə də biz Cənubi Qafqazda baş verənlərə xüsusi diqqət yetirir və vasitəçilik xidmətlərimizi təklif edirik.

BMT Təhlükəsizlik Şurasının iclasında müxtəlif ölkələrin və strukturların maskaları yenidən cırılıb. Bu gün Fransa sülhməramlı adı altında regionda yeni münaqişə yaradır. Gəlin təfərrüatlara keçək. Parisin BMT-dəki nümayəndəsi çıxışına başlayaraq özünü ədəbsiz aparıb. O, yalnız Ermənistanı müdafiə edib. Budur belə bir tamaşa. Guya məhkəmədə oturmuşuq, təqsirləndirilən və zərərçəkən var. Belə bir göstəriş. Bir daha Avropa İttifaqı intriqası. Əgər Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Əliyev və Paşinyanla görüşlərindən sonra neytral bəyanatlar, bəlkə də daha çox Azərbaycana rəğbətlə yanaşılacaqsa, indi





xarakterizə etmək olar. Ermənistanın, eləcə də onun Avropadakı yüksək vəzifəli tərəfdaşlarının gözlədiyi və axtardığı heç bir irəliləyiş baş vermədi.

Ermənistan BMT Təhlükəsizlik Şurasının “fövqəladə” iclası ilə böyük qalmaqal yaratmaq istəyirdi və beynəlxalq ictimaiyyətin Bakını pisləyəcəyinə ümid edirdi. Görüşdən əvvəl Ermənistan XİN rəhbəri ardıcıl olaraq müxtəlif ölkələrdən olan həmkarlarına zəng edib. Lakin İrəvan üçün bundan heç nə alınmadı. Görüşün nəticəsi olaraq, sadəcə olaraq, tərəflərin konsensusa gəlməsi tövsiyə olundu.

Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinə Qarabağa humanitar yüklərin çatdırılması üçün imkan yaradılmalı olduğu barədə bəyanat çox maraqlıdır. Baxmayaraq ki, Azərbaycan uzun müddətdir ki, humanitar yüklərin tədarükü üçün Ağdam-Xankəndi marşrutunu təklif edir, lakin bu, nədənsə Ermənistan tərəfinə uyğun gəlmir. Və o, bunu sevmir, çünki o, müntəzəm olaraq etdiyi böyük bir qalmaqal yaratmaqdır.

Qarabağın Bakının nəzarətində olmayan hissəsində heç bir humanitar fəlakətin olmadığı göz qabağındadır. Bu, PR şırnağıdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının iclasının gözlənilməz bir şəraitdə keçirilməsi təəccüblüdür (səbəblər aydın olsa da). Bunun üçün heç bir səbəb də yox idi. BMT Təhlükəsizlik Şurasında mövcud olmayan problemi müzakirə etmək ən azı qəribədir. Göstərsinlər görək, Qarabağda kimlər acından ölür? Heç kim. Erməni qüvvələri öz yəndəsinin müavini tərəfindən səsləndirilən mövqe, iclasda digər ölkələrin fonunda ən balanslı və konstruktiv görünən mövqedir. Və bu mövqe Moskvanın qondarma deyil, konkret əməlləri, konkret işi ilə dəstəklənir.

İyulun 25-də Rusiya paytaxtında Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü olub. Məlumdur ki, bu görüş çərçivəsində Azərbaycan tərəfinin təklif etdiyi alternativ Laçın Ağdam-Xankəndi yolundan istifadə imkanları müzakirə olunub. Erməni tərəfi isə əvvəlcə razılaşdı, daha sonra növbəti dəfə qınayaraq imtina etdi. Söhbət ondan gedir ki, Qarabağın Bakının nəzarətində olmayan hissəsində guya ərzaq və ya başqa bir şeylə bağlı vəziyyət kritikdirsə, o zaman onların hansı yolla getməsi deyil, təchizatın özü vacibdir. Amma nədənsə Ermənistana Laçın yolu lazımdır, ona alternativ yox. Və bu, o deməkdir ki, onların heç bir təchizata ehtiyacı yoxdur.

Polyanski onu da qeyd edib ki, əgər belə məsələlərin həlli üçün BMT Təhlükəsizlik Şurasının platformasından istifadə etməyə çalışırlarsa, bundan konstruktiv istifadə edilməlidir. Güman edirəm ki, mütəmadi olaraq Rusiyanı tənqid etməklə, güclü qərbyönlü mövqeyə malik beynəlxalq strukturları və təşkilatları Ermənistan-Azərbaycan prosesinə yüksək səslə, qalmaqallı şəkildə cəlb etməyə çalışan İrəvanın hərəkətlərinə də istinad edilib. Ermənistanın tələbi ilə BMT Təhlükəsizlik Şurasının çağırılması belə cəhdlərə misal Qarabağ erməniləri bir-biri ilə barışmalıdır. Qeyri-regional oyunçuların psevdo-tənzimləmə üçün tətbiq etməyə çalışdıqları sxemlər yalnız vəziyyəti sarsıdır. Ermənistan-Azərbaycan probleminin həlli məsələsində bir çox Qərb yanaşmaları keçərli deyil. Söhbət Şərqdə, Qafqazda 30 ilə yaxındır davam edən münaqişədən gedir. Onun son həlli nöqteyi-nəzərindən, vəziyyəti yalnız çətinləşdirən çoxlu sayda tələlər var. Buna misal olaraq ATƏT-in Minsk qrupunun həmsədrlərinin nizamlanmaya gətirib çıxarmayan “işini” göstərmək olar.

Rusiyanın mövqeyi niyə konstruktiv və mənalı görünür? Çünki o, Azərbaycan və Ermənistana mental olaraq daha yaxındır. Bu, hər iki xalqın ona yaxın olduğu nadir haldır. Neçə illərdir eyni vəziyyətdəyik. Və məhz Rusiya İkinci Qarabağ müharibəsinin başa çatmasında əsas vasitəçi və iki ölkə arasında münasibətlərin normallaşması üçün əsas vasitəçi oldu.

Bakı və İrəvan kənar oyunçular müdaxilə etməsə, Moskva və Ankaranın vasitəçiliyi ilə sakitcə razılığa gələ bilərlər. Ermənilərin arxasında dayanan, daim gizli təxribatlarla məşğul olan fransız və avropalı siyasətçilər olmasaydı, məncə, Bakı ilə İrəvan arasında sülh müqaviləsi çoxdan imzalanardı və tərəflər müqavilə çərçivəsində praktiki məsələlərin həyata keçirilməsi ilə məşğul olardılar. Və belə çıxır ki, sülh prosesi, o cümlədən kənardan gələn “köməkçilərin” sayəsində boltologiyaya qədər ixtisar edilib. Çünki Qərb dövlətlərinin məqsədi Zaqafqaziyada sülh deyil, Təhlükəsizlik Şurasının Laçın yolunda keçirilən iclasında Avropa İttifaqının nümayəndəsi Bakıya ağır zərbə vurdu. Eyni zamanda, ABŞ balanslı hərəkət etdi. Məlumdur ki, Aİ-nin Cənubi Qafqaz siyasətinin arxasında ABŞ dayanır, səbəbsiz deyil ki, Avropa İttifaqı Əliyevlə Paşinyan arasında görüşlər təşkil edən hər bir halda ABŞ dərhal bəyanatlarla və qeydlərlə gündəmə gəlir. Bu cür təmasları dəstəkləyirlər və ümumiyyətlə, bütün bu görüşlər, demək olar ki, “Avropa tərəfdaşları” ilə razılaşırlar. Ona görə də görüşdə ABŞ bitərəf danışanda, Aİ isə Azərbaycan haqqında mənfi danışanda bu, daha çox “pis-yaxşı polis” oyununa bənzəyir.

Və Aİ-nin belə bir mövqeyini dilə gətirməsi ciddi problemlərə yol aça biləcək böyük səhvdir. Axı Bakı və Moskva hər şeyi görür.

Ermənistanın Təhlükəsizlik Şurasının iclasında tutduğu mövqe, onun avropalı ağalarının mövqeyi kimi, emosional səsküydən başqa bir şey deyildi. Heç bir konstruksiya, heç bir sübut yoxdur. Erməni tərəfinin dediyi hər şey emosiyalar, hisslərlə oynamaq cəhdi idi. Kimsə inanacaq...

Amma Azərbaycanın bir daha gətirdiyi arqumentlər sülhə yönəlmiş ardıcıl konstruktiv mövqedir. Burada şikayət ediləcək bir şey yoxdur. Və bu mövqe Təhlükəsizlik Şurasında Azərbaycana dost dövlətlər tərəfindən dəstək gördü. Ona görə də Təhlükəsizlik Şurasının iclası Bakının qəti mövqelərini bir daha təsdiqlədi.

***Tərcümə - Elçin Bayramlı***

# Hiperaktivlik xəstəlikdir, yoxsa həyat tərzi?

*Dünyada uşaqların 12%, böyüklərin 4%-i bu problemlə yaşayır*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.***

***Hiperaktiv sözü həddindən artıq hərəkətli, bir yerdə dayanmayan, həmişə hərəkətdə olan uşaqlar üçün işlədilən bir ifadədir. Bəzən onlara "diqqət pozuqluğu olan uşaqlar" da deyirlər. Bu, əslində, uşaqların özünü idarə edə bilmədiyi psixoloji xəstəlikdir. Övladınızın müəllimindən "uşaq dərsə qulaq asmır, fikri dərsdə olmur, həmişə nə haqdasa fikirləşir, ya da nadinclik edir" tipli şikayətlər eşidirsinizsə, o zaman övladınızda hiperaktivlik ola bilər. Mütəxəssislər hesab edir ki, hiperaktiv uşaqlar, əslində, yaşıdlarına nisbətən daha zəkalı olur, lakin anormal dərəcədə olan hərəkətlilik onların zəkasına və dərsi qavramasına mane olur. Onlar yaşıdlarından daha çox hərəkətlidirlər, hərəkətlərini düşünmədən və istədikləri yerdə edirlər.***









## Onları necə tanımalı?

Psixoloqlar ağıllı, zəakalı olduqları halda, dərsə diqqət etmədiyi üçün həmişə müəllimləri və valideynləri tərəfindən danlaq eşidən hiperaktiv uşaqların ciddi psixoloji problemlər yaşayacağını bildirir. Psixoloq Günay Həsənova deyir ki, hər hərəkətli uşaq hiperaktiv deyil: "Hiperaktiv uşaqlar ağıllı, zəkası inkişaf etmiş, bəzən hədsiz zəkalı, çox hərəkətli, diqqətsiz, tez bezən, növbəni sevməyən uşaqlardır. Hiperaktivliyin də növləri olduğu üçün uşaq həmişə çox hərəkətli olmaya bilər. Partada oturmayan, sinifdə gəzən, sinif yoldaşı ilə dərs ortasında söhbət edən, söz kəsən, dərs sırasını gözləməyən, arxadakı, yanındakı və ya önündəki yoldaşını dürtmələyən, israr edən, düşünmədən davranan, dərsi izləməyə çətinlik çəkən uşaqlar hiperaktivdirlər".

Psixoloq hər dəqiqə xəbərdarlıq edilən uşaqda ciddi plsixoloji problemlər ola biləcəyini istisna etmir. Onun sözlərinə görə: "Əslində, onlar yaşıdlarına nisbətən daha geniş bacarıqlara sahibdirlər. Sadəcə, fikrini dərsə verməyən hiperaktiv uşaq dərslərində, əlbəttə ki, uğursuz nəticə göstərəcək. Bu, tənbəllik və dəcəllik deyil. Ona görə də həm müəllimi, həm valideyni ona qarşı bir az diqqətli olmalıdır, danlamaq, qışqırmaq həll yolu deyil. Əksinə, davamlı olaraq danlaq eşidən hiperaktiv şagird depressiyaya girə bilər, altını islada, kəkələyə, dırnaq gəmirə bilər. Çalışmaq lazımdır ki, hiperaktiv uşağın valideyni ilə müəllimi əməkdaşlıq eləsin, bir-biri ilə xəbərləşsin, uşağı birlikdə dərsə yönləndirsin".

## Uşaq şıltaqlığı ilə hiperaktivliyi ayırd etmək vacibdir

Pediatr Şəkər Sultanovanın sözlərinə görə, əslində, hiperaktivlik haqqında mütəxəssislərin yekdil rəyi yoxdur, amma bu problemi xəstəlik hesab eləməyənlərin sayı daha çoxdur: "Hiperaktivliyin meydanaçıxma səbəbləri də müxtəlifdir, genetik meyillilik, hamilə vaxtı nikotindən istifadə, hamilə vaxtı anada infeksiyalarin olması, doğuş travmaları, sosial-psixoloji faktorlar (valideynlərdə alkoqolizm, ailədə tərbiyənin düzgün qurulmaması və s.). Hiperaktiv uşaqları fərqli davranışlarla təyin etmək olur. Məktəbəqədər yaşlı uşaqlarda aqressivlik, impulsivlik, yuxu və nitq pozğunluqları, izafi hərəkətlilik müşahidə edilirsə, məktəb yaşlı uşaqlarda diqqətsizlik, intizamsızlıq, yaddaş pozğunluqları, hövsələsizlik, bir yerdə otura bilməmək və s. görülür".

Həkim bu əlamətləri övladında müşahidə edən valideynlərə məsləhət görür ki, hiperaktivliyə qarşı dərman təyin edilmədiyi üçün ailədə bu problemi həll etməyə çalışmalıdırlar: "Son vaxtlar dərman istifadəsini optimal variant hesab etmirlər, ona görə də evdə valideyn uşağa qarşı həmişə mehriban davranmalıdır. Komanda, əmr, aqressivlik qətiyyən yolverilməzdir.





Uşağı həvəsi olan məşğuliyyətə həvəsləndirmək, marağını daha da stimullaşdırmaq lazımdır. Yatmırsa, zorla yatırtmaq olmaz. Oyuncaqları, evdəki əşyaları sındırırsa, acıqlanmaq, cəzalandırmaq qətiyyən olmaz. Bir sözlə, uşağın emosiyalarına çox həssas yanaşmaq lazımdır".

Həkim uşaqların aqressiyasını azaltmaq üçün xeyirli vərdişlərə yönəltməyi ən yaxşı variant hesab edir: "Rəqs, üzgüçülük və s. məşğuliyyət uşağın aqressivliyini azaldan amillərdir və bundan mütləq istifadə etmək lazımdır. Əgər uşağın nitqində və intellektində ciddi prolemlər varsa, psixoloqa və defektoloqa müraciət etmək lazımdır. Əslində, indiki uşaqların əksəriyyətində sadaladığım əlamətlərin hamısına rast gəlmək olar. Amma uşaq şıltaqlığını hiperaktivlikdən fərqləndirməliyik. Hamilə vaxtı və doğuş zamanı anada ciddi problemlər olubsa, daha çox hiperaktivlik haqqında düşünməliyik".

## Valideyn nə etməlidir?

Amerikada aparılan bir araşdırmaya görə hazırda dünyada uşaqların 12%, böyüklərin 4%-i bu problemlə yaşayır. Əsasən, oğlan uşaqlarında rastlanan bu vəziyyət yaxın illərdə 19 faizədək yüksələ bilər. Valideynlər evdə övladının hiperaktivliyinin fərqinə vara bilmirlər, uşaq bağçaya, məktəbə gedəndə yaşıdlarından fərqlənəndə valideynlər onların arasındakı fərqi hiss edirlər. Çünki hiperaktiv uşaqlar yaşıdlarına nisbətən çox hərəkətlidir, xəbərdarlıqlara qulaq asmır.

Hiperaktiv uşağın valideynlərinin üzərinə çox iş düşür. Əvvəla, hiperaktivliyin ram edilə biləcək bir pozuntu olduğunu nəzərə alın. Hiperaktivlik ailə üçün nə qədər problemlidirsə, uşağın özü üçün də bir o qədər narahatlıq doğuran problemdir, sadəcə, hərəkətlərini nəzarət altına almaqda çətinlik çəkir. Yəni, əslində, onlar sakit dayanmaq istəsələr belə hərəkətdə olurlar.

Övladınızın etdiyi yaxşı hərəkətlər üçün mükafat təyin edin, gəzintiyə çıxarmaq, 15-20 dəqiqəlik müddətlərə cizgi filmi izləməsinə icazə verin. Müəllimi ilə sıx əlaqədə olun, ondan hiperaktiv övladınızı nəzarət edə biləcəyi sırada oturtmasını istəyin, çünki arxa sırada oturaraq hərəkətlərinə və dəcəlliyinə görə bütün dərsi küncdə keçirən uşağa valideyn də evdə nəzarət edə bilməz. Amma nəzərə alın ki, hər hərəkətli uşaq hiperaktiv deyil. Bu diaqnozu ona pediatr və psixoloqun birgə müayinəsindən sonra qoymaq olur.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

19 avqust
2023-cü il

# Yol təəssüratı

FELYETON

***Əvvəllərə ağlınız getməsin ki... Məni qınamayın, sizin o əvvəllərinizdə səssiz-küysüz bir həyat vardı. Sanki hamı susub danışmırdı, dinmirdi. Hər yerdə sakitlik hökm sürürdü. Küçə-baca sakitlik, nə maşınlardan səs çıxardı, nə insanlardan.***

Heyif deyil indi... Bir günlük yol təəssüratlarımdan danışım, qulaq asın, görün necə maraqlı dövrdə yaşayırıq. Onu da bəri başdan deyim ki, deyəcəklərim tam bir günün deyil ha... Sadəcə işdən çıxıb evə qədər olan məsafədə gördüklərimdir...



Deməli, işdən çıxmışam. Beş-altı addım atmışdım irəliyə ki, qarşıdakı məktəbin qabağında mərkəzi yola doğru sıx tıxacın olduğunu gördüm. Qarşıda qıpqırmızı bir maşın dayanmışdı. İçəridən ətrafa ildırım sürəti ilə " Bu dünya çox qəribədi" sözləri oxunan mahnı səsi yayılırdı. Halal olsun içəridəki "kepkalı" oğlana, o qədər səs vermişdi ki, hamı çönüb o səmtə baxırdı. Oğlan da hırıldayırdı.

Vallah, necə gözəl mənzərə idi, deyə bilmərəm. Amma hamı gülümsəyirdi. Mən də belə anladım ki, hamının xoşuna gəlir, çünki xoşbəxt görünürdülər.

Bir az irəlilədim, orada Kapitalbank var, qarşısında dayandım ki, maşınlar keçsin, mən də keçim. Gördüm ki, qarşıdan bir maşın gəlir, bu maşını bir yox, iki nəfər sürür. Onlar yaxınlaşana kimi eynəyimi çıxarıb silib yenidən gözümə qoydum ki, görüm düz görürəm, yoxsa əyri. Baxdım ki, yox, düz görürmüşəm, gənc oğlandır, gənc bir qız da oturub düz qucağında, sürürlər.

Başladım gülümsəməyə. Yanımdakılar nə isə pıçıldaşırdılar, amma onlara qulaq vermədim. Niyə? Çünki ovqatımı təlx edən nə isə bir söz eşidərdim birdən. Bilirsiniz də, hərə bir fikirdə olur.

Nə isə... Üz tutdum metroya tərəf. Metro qapısının düz ağzındaca bir maşın dayanmışdı. İçəridən ətrafa elə bir yayılırdı ki, inanmayacaqsınız mənə, guppultusu yeri titrədirdi. Bunu titrəyən ayaqlarımla açıqca hiss edirdim. Dedim, maşallah, heç gör əvvəlki illərdə bircə səs çıxardı maşınlardan. Budur ey, nəinki musiqi dinləyirik, hətta silkələnirik də... Hələ istəsən, oynamaq da olardı.

Keçdim metroya-içəriyə. Eskalatorda iki gənc-qız-oğlan enirdilər. Qucaqlaşmışdılar. Dedim, bərəkallah, necə də mehribandırlar. Allah bu gəncləri həmişə belə mehriban etsin. Gör nə qədər səmimidilərsə, bunu hamının görməsini istəyirlər. Həm də nümunədirlər ki, baxın, belə mehriban olmaq lazımdır.

Hamı da onlara baxırdı, necə deyərlər, ağızlarının suyunu axıda-axıda...

Qatarda bir oğlan vardı, gənc idi. "Buratinonun" şəkli olan corab geyinmişdi. Oturmuşdu düz qarşımda. Ayağını da qaldırıb o biri ayağının üstünə elə qoymuşdu ki, ta bir nəfər oradan keçə bilməzdi. Əlində də telefon. Heç xəbəri yox idi ki, metrodadır, yoxsa evində divanın üstündə. Uşaq, gör, insanları necə çox istəyirsə, onların arasında çox sərbəstdir, elə bil evdəki kimi. Camaat da onun ayağına dəyməsin deyə bir təhər sürüşüb qabağından keçir, o biri oturacaqlarda oturmağa çalışırdılar. Onu əsla narahat etmirdilər. Deyəsən onlar da onu anlayırdılar.

Dedim, maşallah, nə gözəl, müasir gənclərimiz var. Oturuşu-filanı da əsl fransızsayağıdır. Corabları da fərqli idi axı...

Qatardan düşdüm, evə yollanıram. Qarşıdan iki nəfər gəlir, ər-arvaddırlar, sevgilidirlər, dostdular, bilmirəm. Qadın telefonu qoyub qulağının dibinə, kimləsə ucadan danışır. Deyir ki, o cındır mənim evimin aboylarını yaman günə salıb. Gedib baxmışam, başım xarab olub. Ona deginən ki, ay şərəfsiz niyə belə etmisən? Gəl, canın çıxsın aboyu dəyiş, yoxsa... Ardını sizə, ay insanlar. Nə yaxşı ki, varsınız. Gör nə gözəl səslər eşitdik, mənzərələr gördük. Qulağımızın pərdəsi, gözlərimizin bəbəyi sevindi. Maşallah, belə olsun həmişə.

Çünki qadın yəqin bir qədər əsəbi idi, yoxsa küçədə ağzından o sözü çıxarardı niyə?

Gərək insanı anlaya biləsən ey. Qırmızı maşınlı oğlanın maşınından guppuldayan mahnıda deyildiyi kimi, dünya qəribə dünyadı. Hər şey olar bilər. Amma bizim dünyamız qəribəlikdən daha çox, maraqlıdır.

Bütün bu bir-birindən gözəl hadisələri izləyə-izləyə evə necə çatdım, xəbərim olmadı. Dedim, halal olsun sizə, ay insanlar. Nə yaxşı ki, varsınız. Gör nə gözəl səslər eşitdik, mənzərələr gördük. Qulağımızın pərdəsi, gözlərimizin bəbəyi sevindi. Maşallah, belə olsun həmişə.

***Mətanət Məmmədova***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Əvvəl bəyənməyənlər indi aludə oldular

**Məşhur türk sima Canan Karatay "Qəhvəyə yağ tökmək hər dərdə dərmandır" deyəndə bir çoxları onu tənqid etmişdi. SİA Türkiyə mətbuatına istinadən xəbər verir ki, ancaq zaman keçdikcə insanların fikri dəyişdi. Belə ki, artıq Türkiyədə bir çox məkanlarda kərə yağlı qəhvəyə üstünlük verilir.**





Dağa qalxarkən üşüməmək və enerji toplamaq üçün kərə yağı ilə qəhvə içən tibetlilər yeni trendin ilk sınayanı oldular. Son araşdırmalar kərə yağının ürək-damar xəstəlikləri, insult və 2-ci tip diabet riskini azaltdığını göstərdikdən sonra yağlı qəhvə dəb halına gəldi. Bodrumun ən dəbdəbəli otellərindən birinin menyusunda yer alan və stəkanı 300 lirəyə satılan yağlı qəhvə böyük diqqət çəkir. Bunu görən digər sahibkarlar da bu maraqlı ləzzəti öz məkanlarına gətirməyə başladılar.

Həmin məşhur qəhvənin resepti budur:
Lazımi materiallar
**1 qəhvə fincanı su**
**1 çay qaşığı qəhvə**
**1 çay qaşığı duzsuz kərə yağı**
**istəyə görə bal**

Hazırlanması:
Əvvəlcə bir stəkan su, 1 çay qaşığı türk qəhvəsi və 1 çay qaşığı kərə yağı qəhvə qabına qoyulur və vam odda qaynadılır.

Bu vaxt məhlul qarışdırılmalı və kərə yağı yaxşıca əridilməlidir.

Türk qəhvəsi bişirilərkən qarışdırıldıqda həmişə bir az daha köpüklü olur. Qəhvədəki su soyuq olmalıdır. Əks halda həm dadı, həm də görünüşü arzuolunan olmayacaq. Əgər şəkərli qəhvəni sevirsinizsə, üzərinə bir az şəkər əlavə etmək olar. Qəhvə köpüyüb qalxmağa başlayanda ocaqdan götürülür, fincana tökülür və su ilə süfrəyə verilir.

***Ayşən Vəli***

## Messi "İnter Mayami"yə niyə keçib? – özü açıqladı

"İnter Mayami"nin argentinalı hücumçusu Lionel Messi ABŞ klubuna transferindən danışıb. Qol.az tennessean.com-a istinadən xəbər verir ki, 36 yaşlı forvard MLS təmsilçisinə keçidinə uşaqları və həyat yoldaşı ilə birlikdə qərar verdiyini deyib: "Komandaya böyük həvəslə və yaxşı nəticələr əldə etmək istəyi ilə gəlmişəm. Mən bütün karyeram boyunca bunu etmişəm. Finala çıxmaq bizim üçün sürpriz olsa da, buna hazırlaşırdıq.

ABŞ liqasına keçmək üçün bir neçə səbəbim var idi. Həyat yoldaşım və uşaqlarımla birlikdə qərar verdik. Mən buraya futboldan həzz almaq üçün gəlmişəm. Və qərarımdan çox məmnunam. "Barselona"dan PSJ-yə keçid çətin oldu. "İnter Mayami"yə transfer isə tamam başqa məsələdir".

Xatırladaq ki, Messi bu yay transfer pəncərəsində "İnter Mayami"yə keçmişdi. Argentinalı futbolçu bu mövsüm 6 matçda iştirak edib, 9 qol vurub və 1 qolun ötürməsini edib.



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**